RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 108 (8987) ÇƏRŞƏNBƏ AXŞAMI, 24 may 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Prezident İlham Əliyev Belçika Krallığına işgüzar səfər edib

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəvəti ilə mayın 22-də Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərə gedib.

## Təkbətək görüş



Mayın 22-də Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə təkbətək görüşü olub.

2

## Üçtərəfli görüş

Mayın 22-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub.

2

# Sülh danışıqları Azərbaycanın şərtləri əsasında aparılacaq



5

# Möhtəşəm fəaliyyətlə qazanılan yüksək nüfuz



**ABŞ Prezidenti Cozef Baydenin məktubu bu nüfuzun bir daha təsdiqidir!**

**Dünya miqyasında görünmək, fərqlənmək, tanınmaq və yüksək nüfuz qazanmaq o qədər də asan məsələ deyil!**

**Xüsusən də mahir siyasətçi və uzaqgörən dövlət başçısı kimi!**

**Yenicə dövlət müstəqilliyi qazanan nisbətən kiçik ölkələrin rəhbərlərinin isə nüfuz sahibinə çevrilməsi daha çox zaman tələb edən mürəkkəb prosesdir!**

5

## Prezident Roma Papasını təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Roma Papası Fransiskə Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar məktub ünvanlayıb.

3

# İlham Əliyev Rəcəb Tayyib Ərdoğanla son Brüssel görüşünü müzakirə edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**



Dövlətimizin başçısı dünən Brüsseldə Azərbaycan Prezidenti, Avropa İttifaqı Şurasının prezidenti və Ermənistanın baş naziri arasında keçirilən görüş barədə məlumat verib. Prezident İlham Əliyev görüş zamanı Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması, bu xüsusda Azərbaycan tərəfindən beynəlxalq hüquqa əsaslanan beş prinsipin təqdim olunması, iki ölkə arasında münasibətlərin normallaşdırılması, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin delimitasiyası ilə bağlı müzakirə olunan məsələlərə toxunub. Azərbaycan Prezidenti üçtərəfli görüşün nəticəsini müsbət qiymətləndirdiyini bildirib.

Dövlətimizin başçısı eyni zamanda bu gün Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında sərəncam verildiyini də qeyd edib.

Prezident İlham Əliyev həmçinin Zəngəzur dəhlizinin açılması, o cümlədən həm dəmir yolu, həm də avtomobil yolunun çəkilməsi məsələləri ilə də bağlı tərəflərin razılığa gəldiyini bildirib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan üçtərəfli görüş barədə verilən məlumata görə, minnətdarlığını ifadə edib və bu görüşdə əldə olunan müsbət nəticələri yüksək qiymətləndirib.

Azərbaycan və Türkiyə prezidentləri bölgədə sülhün tezliklə əldə edilməsinin önəmini vurğulayıblar.

Dövlət başçıları söhbət zamanı ikitərəfli dostluq və qardaşlıq münasibətlərinə dair məsələlər və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə aşağıdakı tərkibdə Dövlət Komissiyası (bundan sonra - Dövlət Komissiyası) yaradılsın:

**Komissiyanın sədri**

Şahin Mustafayev - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Baş nazirinin müavini
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası müdafiə nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin birinci müavini
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidməti rəisinin müavini
Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi
Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin sektor müdiri
Qazax Rayon İcra Hakimiyyətinin başçısı
Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı
Tovuz Rayon İcra Hakimiyyətinin başçısı
Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı
Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı
Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı
Laçın Rayon İcra Hakimiyyətinin başçısı
Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı
Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Dövlət Komissiyasının Katibliyinin və aidiyyəti dövlət orqanlarının (qurumlarının) mütəxəssislərindən ibarət müntəzəm fəaliyyət göstərəcək ekspert qrupunun yaradılmasını təmin etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2022-ci il*




7

## Prezident İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri

# Təkbətək görüş



**Mayın 22-də Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə təkbətək görüşü olub.**



AZƏRTAC xəbər verir ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Görüşdə Prezident İlham Əliyev Şarl Mişelin Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması, iki ölkənin münasibətlərinin normallaşdırılması, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin delimitasiyası və demarkasiyası proseslərinə verdiyi dəstəyi yüksək qiymətləndirdi.

Bu formatda Avropa İttifaqının təşəbbüsü və vasitəçiliyi ilə üçüncü dəfədir ki, görüşün keçirildiyini qeyd edən dövlətimizin başçısı bu görüşün təşkilinə görə Şarl Mişelə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün Azərbaycan tərəfindən beynəlxalq hüquqa əsaslanan 5 prinsipin təqdim olunduğunu qeyd etdi və bu prinsiplərin sülh müqaviləsinin hazırlanmasında əsas rol oynadığını vurğuladı.

Dövlətimizin başçısı iki ölkə arasında sülh müqaviləsinin hazırlanması prosesinin sürətli şəkildə həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.

Prezident İlham Əliyev bu il aprelin 6-da Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında keçirilmiş görüşün nəticələrinə uyğun olaraq, Azərbaycanın aprelin sonunda sülh müqaviləsi üzrə danışıqlara başlamaq üçün İşçi Qrupunun tərkibini, həmçinin sərhədlərin delimitasiyası üzrə milli komissiyanın tərkibini müəyyənləşdirdiyini və bu xüsusda danışıqlara hazır olduğunu bir daha qeyd etdi.

Azərbaycan Prezidenti İlham Əliyev, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə mina problemi və Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan 4 minə yaxın şəxsin taleyinə aydınlıq gətirilməsinin vacibliyini bir daha vurğuladı.

Dövlətimizin başçısı 10 noyabr bəyanatının bütün müddəalarının Ermənistan tərəfindən icra olunmasının zəruriliyini qeyd etdi.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Avropa İttifaqının Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesinə dəstək vermək əzmini bir daha ifadə etdi, vasitəçilik səylərini davam etdirəcəyini bildirdi və bu formatda keçirilmiş əvvəlki görüşlərin əhəmiyyətinə toxundu. Şarl Mişel Brüsseldə bu formatda görüşdə iştirakına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# Üçtərəfli görüş





AZƏRTAC xəbər verir ki, mayın 22-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub.

# Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanla görüşdən sonra Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel mətbuata açıqlama verib

**Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlama verib.**

AZƏRTAC xəbər verir ki, Şarl Mişel açıqlamasında deyib:

- Axşamınız və ya gecəniz xeyir. Bu gün mən Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşə bir daha evsahibliyi etdim. Bu, bizim bu formatda üçüncü müzakirəmiz idi. Biz Cənubi Qafqazda vəziyyət və hər iki ölkənin Avropa İttifaqı ilə münasibətlərinin inkişafına, habelə sərhəd regionuna əsas diqqəti yönəltdik.

Müzakirə səmimi və məhsuldar oldu, biz bütün məsələləri nəzərdən keçirdik. Bizim humanitar məsələlər, o cümlədən minaların təmizlənməsi və saxlanılanların azad edilməsi ilə bağlı səylərlə əlaqədar ətraflı müzakirəmiz oldu və biz itkin düşmüş insanların taleyinə də toxunduq.

Biz aşağıdakı nəticələrə nail olduq. Sərhəd məsələləri ilə bağlı sərhəd komissiyalarının birinci birgə iclası dövlətlərarası sərhəddə yaxın günlərdə baş tutacaq. Bu iclasda sərhədin delimitasiyası və sabit vəziyyətin ən yaxşı şəkildə necə təmin edilməsi ilə bağlı bütün məsələlərə toxunulacaq.

Kommunikasiya ilə əlaqədar liderlər nəqliyyat əlaqələrinin açılması istiqamətində işlərin davam etdirilməsi zərurəti üzərində razılığa gəldilər. Onlar Azərbaycanın qərb hissəsi ilə Naxçıvan və Azərbaycan ərazisindən Ermənistanın müxtəlif hissələri arasında tranzitləri, habelə hər iki ölkənin kommunikasiya infrastrukturu vasitəsilə beynəlxalq nəqliyyat daşımalarını tənzimləyəcək prinsiplər üzərində razılığa gəldilər. Onlar xüsusilə beynəlxalq daşımalar kontekstində sərhəd idarəetmə prinsipləri, təhlükəsizlik, eləcə də gömrük rüsumları və qaydaları barədə razılığa gəliblər və yaxın günlərdə Baş nazirlərin müavinləri bu işi davam etdirəcəklər.



Sülh sazişinə gəlincə, liderlər Ermənistan ilə Azərbaycan arasında dövlətlərarası münasibətləri tənzimləyən gələcək sülh müqaviləsinə dair müzakirəni davam etdirmək barədə razılığa gəliblər. Yaxın həftələrdə xarici işlər nazirlərinin başçılıq etdikləri nümayəndə heyətləri bu prosesi davam etdirəcəklər.

Bunun davamı olaraq, mən hər iki liderə müraciətlə vurğuladım ki, zənnimcə, Qarabağdakı etnik erməni əhalinin hüquqları və təhlükəsizliyi məsələsinin həll olunması vacibdir.

Sosial-iqtisadi inkişafa gəlincə, Avropa İttifaqı tərəflərlə birlikdə hər iki ölkənin və onların xalqlarının rifahı naminə iqtisadi inkişafı təşviq etməyə çalışan İqtisadi Məşvərət Qrupunun işini inkişaf etdirəcək. Mən həmçinin əhalinin uzunmüddətli davamlı sülhə hazırlanmasının vacibliyini də vurğuladım və Avropa İttifaqı öz dəstəyini gücləndirməyə hazırdır.

Biz sıx təmasda qalmağa razılaşdıq və iyul-avqust aylarına qədər eyni formatda yenidən görüşəcəyik. Təşəkkürlər.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Zati-aliləri.

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Bosniya və Herseqovinanın Rəyasət Heyəti adından və şəxsən öz adımdan Sizə səmimi salamlarımı və ölkənizin daha firavan olmasına dair ən xoş arzularımı çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək Bosniya və Herseqovina ilə Azərbaycan Respublikası arasında mövcud olan dostluq münasibətlərinin ölkələrimizin rifahı naminə bundan sonra da inkişaf edəcəyinə əminliyimi bildirirəm.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Şefik CAFEROVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan, dost Azərbaycan xalqına böyük tərəqqi və firavanlıq arzulamaqdan məmnunluq duyuram.

Dost xalqlarımızın mənafelərinə xidmət etmək üçün ölkələrimiz arasında mövcud olan əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi və inkişafı naminə səylərimizi davam etdirmək niyyətimizi bir daha ifadə edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Məhəmməd vələd əş-Şeyx əl-ĞƏZVANİ,***
***Mavritaniya İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sinqapur xalqı adından ölkənizə və xalqınıza səmimi təbriklərimi yetirir, həmçinin davamlı sülh, tərəqqi və xoşbəxtlik diləyir, ən xoş arzularımı çatdırıram.

Sinqapur qlobal təhdidlərə qarşı kollektiv mübarizəmizi gücləndirmək üçün bundan sonra da beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıq edəcək.

*Hörmətlə,*

***Xanım Həlimə YAQUB,***
***Sinqapur Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Myanma İttifaqı Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizə və Zati-alinizin simasında Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Əminəm ki, Myanma ilə Azərbaycan arasında mövcud dostluq münasibətləri birgə səylərimiz nəticəsində qarşıdakı illərdə daha da inkişaf edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***General Min Aung HLAİNG,***
***Myanma İttifaqı Respublikasının Dövlət İdarə Şurasının Sədri***

❖ ❖ ❖

Cənab Prezident.

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Qabon hökuməti, xalqı adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Bu əlamətdar bayramın yaratdığı xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzularımı ifadə edir, dost Azərbaycan xalqına uğurlar diləyirəm.

Qabon ilə Azərbaycan arasında dostluq əlaqələrinin möhkəmləndirilməsində və yeni səviyyəyə yüksəldilməsində Sizinlə əməkdaşlıq etməyə hazır olduğumu bir daha bildirirəm.

Cənab Prezident, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Ali Bonqo ONDİMBA,***
***Qabon Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Milli bayramınız - Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu gün Azərbaycan Respublikası millətlər birliyində xüsusi yer tutur. Ölkə xalqın rifah səviyyəsinin və beynəlxalq aləmdə nüfuzunun daim artmasına səy göstərərək uğurla inkişaf edir.

Bakının xarici siyasət vektoru ölkənin milli maraqlarına xidmət edir, daxili potensialını artırmağa və tərəqqi yolu ilə irəliləməsinə imkan yaradır.

Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) fəaliyyətinə göstərdiyiniz daimi diqqətə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Əminəm ki, təşkilatın gündəliyində duran məsələlərə maraq göstərmək və ŞƏT ilə dialoqda tərəfdaş qismində fəal iştirak etmək dövlətin statusunun yüksəlməsinə, həmçinin ŞƏT çərçivəsində bundan sonrakı səmərəli əməkdaşlığa zəruri şərait yaradacaq.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, ailə xoşbəxtliyi və bundan sonra da uğurlar, Azərbaycan xalqına isə sülh, firavanlıq və yeni-yeni nailiyyətlər arzulayıram.

*Dərin hörmətlə,*

***Can MİN,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi, ölkənizin hökumətini və xalqını Koreya Xalq Demokratik Respublikasının hökuməti və xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Koreya ilə Azərbaycan arasında ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin iki ölkənin xalqlarının arzusuna və maraqlarına uyğun olaraq genişlənəcəyinə və inkişaf edəcəyinə əmin olduğumu bildirirəm.

Sizə ölkənizin xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Kim Çen IN,***
***Koreya Xalq Demokratik Respublikasının Dövlət Şurasının Sədri***

# Roma Papası Fransisk Həzrətlərinə



Zati-müqəddəsləri.

Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Sizi öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz Müqəddəs Taxt-Tac ilə əlaqələrimizə xüsusi önəm veririk. Məmnunluqla qeyd etmək istəyirəm ki, qarşılıqlı hörmət ilə səciyyələnən münasibətlərimiz otuz illik dövr ərzində böyük inkişaf yolu keçmişdir. 2002-ci ilin mayında Papa II İohann Pavelin və 2016-cı ilin oktyabrında Zati-müqəddəslərinizin Azərbaycana tarixi səfərləri həm ikitərəfli əlaqələrimiz, həm də sivilizasiyalararası dialoq baxımından mühüm əhəmiyyət kəsb etmişdi. Mən də Vatikana etdiyim üç rəsmi səfəri, Sizinlə həm Bakıda, həm də Vatikanda keçirdiyimiz görüşləri ən xoş təəssüratlarla xatırlayıram.

2008-ci ildə Bakıda Katolik Kilsəsinin açılışı münasibətlərimizin tarixində əlamətdar hadisələrdən biri olmuşdur. 2012-ci ildə isə Vatikanda ilk dəfə müsəlman ölkəsinə - Azərbaycana həsr olunmuş sərgi keçirilmişdir. Bütün bunlar dinlərarası və mədəniyyətlərarası anlaşmanın təşviqi, ümumbəşəri dəyərlərin qorunub saxlanması, insanlar arasında həmrəyliyin bərqərar olması istiqamətində əməkdaşlığımızın və birgə səylərimizin təzahürüdür.

Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında formalaşmış səmərəli əməkdaşlığı xüsusi vurğulamaq istərdim. Fond tərəfindən Vatikanda bir sıra bəşəri əhəmiyyət daşıyan tarixi abidələrin bərpası həyata keçirilmiş, mədəni irsin qorunması sahəsində böyük işlər görülmüşdür. Fondun reallaşdırdığı bu layihələr multikultural dəyərlərə sadiq olan və bu dəyərləri təşviq edən ölkə kimi Azərbaycanın ənənəvi rolunu bir daha təsdiq edir.

Zati-müqəddəsləri.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında əlaqələrin inkişafında, konstruktiv dialoqumuzun genişlənməsində Sizin böyük şəxsi töhfəniz var. Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinə daim verdiyiniz yüksək qiymətə görə Sizə təşəkkürümü bildirirəm.

İnanıram ki, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı əməkdaşlıq bundan sonra da sivilizasiyalar və dinlərarası dialoqun, dünyada tolerantlığın təşviqinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, uzun ömür, müqəddəs amallar naminə ali missiyanızda uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2022-ci il*

# Baş nazir Əli Əsədov Estoniya parlamentinin sədri Yüri Ratas ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 23-də Estoniya Respublikası parlamentinin sədri Yuri Ratas ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Estoniya münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafından məmnunluq ifadə edilib.

İki ölkə arasında siyasi, ticari-iqtisadi, sərmayə qoyuluşu, nəqliyyat, enerji, humanitar və bir çox digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

## Ceyhun Bayramov ilə Mövlud Çavuşoğlu arasında telefon danışığı olub



Mayın 22-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirlər ikitərəfli əməkdaşlıq gündəliyi üzrə fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı həmçinin üçtərəfli formatda əməkdaşlıq məsələləri, regional vəziyyət, o cümlədən Ukrayna ilə bağlı məsələlər müzakirə edilib.

## Azərbaycan və Rusiyanın XİN rəhbərləri Ermənistanla dövlət sərhədinin delimitasiyasını müzakirə ediblər



Mayın 23-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər bölgədə mövcud olan cari vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, o cümlədən bölgədə bütün kommunikasiya xətlərinin açılması, Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə fikir mübadiləsi aparıblar.

Tərəflər, həmçinin ikitərəfli gündəliyin aktual mövzuları və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Prezident Administrasiyasında Ağ Partiyasının sədri ilə görüş keçirilib

**Mayın 23-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ölkədə aparılan iqtidar-müxalifət dialoqu çərçivəsində Ağ Partiyasının sədri Tural Abbaslı ilə görüş keçirib.**

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə şöbə müdiri Prezident İlham Əliyev tərəfindən aparılan sistemli islahatların bütün sahələri əhatə etdiyini, bu islahatların dövlətimizin güclənməsi, əhalinin rifah halının yaxşılaşması, postmüharibə dövrünün çətinliklərinin aradan qaldırılması, işğaldan azad edilmiş torpaqlarımızın bərpası və soydaşlarımızın öz doğma yurdlarına qayıtması məsələləri ilə yanaşı, ölkəmizdə baş verən siyasi prosesləri də ehtiva etdiyini qeyd edib. Bunun nəticəsidir ki, Azərbaycanda fəaliyyət göstərən mütərəqqi siyasi qüvvələr Azərbaycan dövlətçilik tarixinin ən çətin və ən şərəfli məqamında - Vətən müharibəsi zamanı ümummilli dəyərlər naminə öz birliklərini ortaya qoydular. Siyasi qüvvələrin Vətən naminə birgə bəyanat və müraciətlərinin ölkə əhalisinin Ali Baş Komandanın ətrafında dəmir yumruq kimi birləşdiyinin göstəricilərindən biri olduğu vurğulanıb. Ölkəmizdə fəaliyyət göstərən partiyalarla hakimiyyət arasında və partiyalar arasında gündən-günə daha da dərinləşən və inkişaf edən siyasi dialoq mədəniyyətinin dövlətimizin güclənməsinə, xalqımızın rifahına böyük töhfələr verəcəyi qeyd olunub.

Ağ Partiyasının sədri Tural Abbaslı, ilk növbədə siyasi dialoq prosesi çərçivəsində keçirilən görüşə dəvət edildiyi üçün təşəkkürünü bildirib. Qeyd edib ki, dövlətimizin güclənməsi və xalqımızın rifah halının yaxşılaşması istiqamətində həyata keçirilən dövlət siyasətini dəstəkləyir, bu siyasətin hər bir vətəndaşı əhatə etməsi üçün siyasi dialoq prosesinin faydalı olmasına inanır. Əhalinin həssas təbəqəsinə, xüsusən Vətən müharibəsi şəhidlərinin ailələrinə, qazilərə, digər müharibə iştirakçılarına və onların ailələrinə diqqətin daha da artırılmasının hazırkı məqamda olduqca vacib olduğu qeyd edilib.

Görüşdə həmçinin ölkəmizdə mövcud olan və Azərbaycan dövlətçiliyinin əbədi olması üçün çalışan bütün qüvvələrin Vətən müharibəsi zəfərinin qazanılmasında pay sahibi olması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi ilə nəticələnən uğurlu xarici siyasətin Azərbaycanın beynəlxalq nüfuzunu möhkəmləndirməsi, Ermənistanın və onların himayədarlarının xalqımızın birliyi qarşısında bütün cəbhələrdə məğlubiyyətlə qarşılaşması, ölkədə aparılan siyasi dialoq prosesinin müxtəlif formatlarda inkişaf etdirilməsi və başqa mövzularda səmərəli fikir mübadiləsi aparılıb. Həmçinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində aparılan xarici siyasət barədə müzakirələr aparılıb. Avropa İttifaqının hərtərəfli sülh sazişi ilə dəstəklənən regionda davamlı sülhün təmin edilməsi məqsədilə münaqişənin aradan qaldırılmasında, əməkdaşlıq və etimad mühitinin yaradılmasında səyləri yüksək qiymətləndirilib. Eyni zamanda 2021-ci il dekabrın 14-də, 2022-ci il aprelin 6-da və mayın 22-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş naziri arasında baş tutan görüşlərin regionda sülhün bərqərar edilməsi, sülh müqaviləsinin imzalanması, kommunikasiyaların açılması və nəticədə regionda yaşayan bütün insanların rifahı üçün təhlükəsiz, sabit və firavan şəraitin qurulması üçün böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Sonda tərəflər iqtidar-müxalifət siyasi dialoqunun yeni formatlarda davam etdirilməsinin və bununla bağlı yeni təkliflərin dəyərləndirilməsinin önəmini vurğulayıb, gələcəkdə ölkəmiz üçün vacib olan məsələlərin siyasi partiyaların iştirakı ilə birgə müzakirələrinin keçirilməsinin əhəmiyyətini qeyd ediblər.

# Estoniya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir



**Mayın 23-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Estoniya parlamentinin (Riigikoq) Sədri Yüri Ratasın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**





Milli Məclisin Sədri Estoniya parlamentinin spikerini və nümayəndə heyətini salamlayaraq onların ölkəmizə səfərlərindən məmnun olduğunu bildirib. Azərbaycan və Estoniyanın dost və tərəfdaş ölkələr olduqlarını deyən Milli Məclisin Sədri bildirib ki, bu il Azərbaycan və Estoniya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü qeyd olunub. Bu illər ərzində münasibətlərimiz tərəfdaşlıq səviyyəsinədək inkişaf edib.

Spiker Sahibə Qafarova yüksəksəviyyəli qarşılıqlı səfərlərin Azərbaycanla Estoniya arasında ikitərəfli və çoxtərəfli münasibətlərə müsbət təsir göstərən amil olduğunu deyib. Bildirib ki, ölkələrimiz arasında siyasi, iqtisadi, ticarət, humanitar və digər əməkdaşlıq sahələrini əhatə edən bir sıra sənədlər imzalanıb və onların sayının artırılması üçün geniş imkanlar var.

Bu ilin fevral ayında Estoniyaya rəsmi səfərini xatırlayan Milli Məclisin Sədri həmin səfərin nəticələrindən məmnunluğunu ifadə edib. Söhbət zamanı Sahibə Qafarova Azərbaycanın Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi imzalamaq ərəfəsində olmasından, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində rolundan, Estoniyanın Avropa İttifaqının üzvü kimi təqdirəlayiq fəaliyyətindən danışıb. O qeyd edib ki, hazırda Azərbaycan neftlə yanaşı, Avropaya etibarlı qaz tədarük edir və bu, Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfədir.

Milli Məclisin spikeri diqqətə çatdırıb ki, iki ölkə arasındakı münasibətlərin inkişafında parlamentlərin qarşılıqlı fəaliyyətinin özünəməxsus rolu var. Bu gün qanunvericilik orqanlarımız arasında əməkdaşlığı daha da dərinləşdirmək üçün yaxşı imkanlar mövcuddur. Parlament sədrlərinin və deputatların qarşılıqlı səfərləri, parlament dostluq qruplarının fəaliyyəti bu əməkdaşlığın inkişafına mühüm təkan verir.

Sahibə Qafarova bildirib ki, parlamentlərimizin beynəlxalq təşkilatlar çərçivəsində birgə əməkdaşlığının daha da gücləndirilməsi üçün yaxşı imkanlar mövcuddur.

Görüşdə Milli Məclisin Sədri Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində qazandığı qələbədən danışaraq qonaqların diqqətinə çatdırıb ki, bu qələbə ilə Azərbaycan beynəlxalq təşkilatların, xüsusilə də BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icrasını təmin edib. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın sonuncu Brüssel görüşündən danışan spiker Sahibə Qafarova tezliklə iki ölkə arasında sülh müqaviləsinin imzalanacağına inandığını bildirib.

Yüri Ratas Estoniya nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. Qonaq Estoniya və Azərbaycan münasibətlərinin dostluq məcrasında inkişaf etdiyini və yaxşı səviyyədə olduğunu bildirib. O, Estoniyanın Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdığını və dəstəklədiyini qeyd edib. Qonaq Şuşa şəhərinə səfər edəcəklərini, bundan məmnunluq duyacaqlarını bildirib.

Estoniya parlamentinin spikeri nümayəndə heyətinə daxil olan biznesmenlərin də Azərbaycanda bir sıra görüşlər keçirəcəklərini və ikitərəfli əlaqələrin müxtəlif sahələrinin inkişafına çalışacaqlarını diqqətə çatdırıb.

Milli Məclis Sədrinin Estoniyaya səfərini xatırlayan qonaq ümidvar olduğunu bildirib ki, onun bu səfəri çərçivəsində keçiriləcək görüşlər və aparılacaq müzakirələr də ikitərəfli əlaqələrin, həmçinin parlamentlərarası münasibətlərin inkişafına öz töhfəsini verəcək.

Yüri Ratas diqqətə çatdırıb ki, Estoniya Azərbaycanla təhsil, ekologiya, kənd təsərrüfatı və digər sahələrdə münasibətlərin inkişafında maraqlıdır. O, Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafını yüksək qiymətləndirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

# Azərbaycan, Türkiyə və Gürcüstan arasında çox səmərəli ikitərəfli və üçtərəfli əməkdaşlıq formatları yaranıb

**Mayın 23-də Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin Şuşada keçirilmiş VII üçtərəfli iclasının iştirakçıları ilə görüşüb.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Sədri üç dost və qardaş ölkə parlamentlərinin Xarici əlaqələr komitələrinin növbəti iclasının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirərək bu görüşlərin ölkələrimiz arasında parlamentlərarası münasibətlərin inkişafına yeni töhfə verəcəyini deyib.

Bildirilib ki, üç ölkə arasında müxtəlif sahələri əhatə edən çox səmərəli ikitərəfli və üçtərəfli əməkdaşlıq formatı yaranıb. Bu münasibətlər regionda sülhə, sabitliyə, əməkdaşlığa və iqtisadi inkişafa kömək edir.

Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan-Türkiyə-Gürcüstan xalqları arasında möhkəm tarixi bağlılıq, dostluq və qardaşlıq münasibətləri mövcuddur. Azərbaycanın həm Türkiyə, həm də Gürcüstan ilə çox möhkəm təməllər üzərində qurulmuş münasibətləri var. Ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli siyasi dialoq dövlət başçılarımız, parlamentlər tərəfindən və digər səviyyələrdə ardıcıllıqla dəstəklənməkdədir. Nüfuzlu beynəlxalq qurumlarda biz həmişə həmrəylik nümayiş etdirir və bir-birimizin mövqeyini müdafiə edirik. Sahibə Qafarova deyib ki, Azərbaycan, Türkiyə və Gürcüstan qlobal əhəmiyyətə malik, irimiqyaslı enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində də uğurlu əməkdaşlıq edirlər.

Milli Məclisin Sədri parlamentlər səviyyəsində əməkdaşlıqdan danışarkən bir neçə gün əvvəl Türkiyə Böyük Millət Məclisinin spikeri Mustafa Şentopun İƏT PA-nın Üçüncü Ümumi Konfransında iştirakını və tədbirdə iştirak edən spikerlərin, nümayəndə heyəti başçılarının Şuşaya səfərlərini xatırladıb. O, bu ilin aprel ayında Gürcüstana rəsmi səfəri zamanı burada keçirdiyi görüşləri, aparılan danışıqları yüksək dəyərləndirib. Üç ölkə parlamentlərinin Xarici əlaqələr komitələrinin Şuşada keçirilmiş VII üçtərəfli iclasının əhəmiyyətini bir daha vurğulayan spiker belə bir tədbirin işğaldan azad olunmuş torpaqlarda, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilməsini müsbət dəyərləndirib.

Bildirilib ki, uzun müddət işğal altında qalmış ərazilərimizdə Ermənistan tərəfindən bütün şəhər və kəndlər dağıdılıb, tarixi, mədəni və dini obyektlər vandalizmə məruz qalıb.

Spiker Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında keçirilən görüşlərdən də danışıb. Bildirib ki, Ermənistan üzərinə götürdüyü bütün öhdəliklərə əməl etməli, məsələyə konstruktiv yanaşma sərgiləməlidir. Postmünaqişə dövründə Cənubi Qafqazda əməkdaşlıq üçün yeni imkanlar yaranmışdır. Heç şübhə etmirik ki, bu imkanlardan istifadə bölgəyə sülh və əmin-amanlıq gətirəcək.

Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Samxaradze ölkəmizə səfərindən və burada keçirilən tədbirlərdən məmnunluğunu ifadə edib. Qeyd edilib ki, belə tədbirlər regional əməkdaşlıq və parlamentlərarası münasibətlərin inkişafı baxımından əhəmiyyətlidir. O, parlamentlərdə fəaliyyət göstərən dostluq qruplarının fəaliyyətini yüksək qiymətləndirib.

Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov üç ölkə parlamentinin Xarici əlaqələr komitələrinin Şuşada keçirilmiş iclası barədə danışıb, müzakirə olunan məsələlər barədə fikirlərini bölüşüb.

Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Akif Çağatay Kılıç tədbirin ölkəmizin işğaldan azad olunmuş Şuşa şəhərində təşkilinə görə təşəkkürünü bildirib. Qeyd edilib ki, Türkiyə Azərbaycanı həmişə dəstəkləyib. İki ölkə liderlərinin Şuşa görüşü bunun bariz nümunəsidir. İnanırıq ki, tezliklə regionda davamlı sülh və sabitlik yaranacaqdır. Türkiyəli qonaq parlamentlərin Xarici əlaqələr komitələrinin üçtərəfli görüşlərinin gələcəkdə də davam etdirilməsinin mövqelərin tutuşdurulması baxımından əhəmiyyətini vurğulayıb.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*R.CƏFƏRLİ, "Azərbaycan"*

# Estoniya parlamentinin Sədri ölkəmizə səfərə gəlib

**Mayın 22-də Estoniya Respublikası Riiqikoqusunun Sədri Yüri Ratasın başçılıq etdiyi parlament nümayəndə heyəti Azərbaycana rəsmi səfərə gəlib .**



Heydər Əliyev Beynəlxalq Hava Limanında Estoniya parlament nümayəndə heyətini Milli Məclis Sədrinin müavini Adil Əliyev, Azərbaycan-Estoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri Jalə Əhmədova, Azərbaycanın Estoniyadakı səfiri Anar Məhərrəmov, Estoniyanın Azərbaycandakı səfiri Anneli Kolk və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Estoniya Riiqikoqusunun Sədri Yüri Ratasın ölkə rəsmiləri ilə görüşü nəzərdə tutulub.

*"Azərbaycan"*

# Estoniya parlamentinin Sədri Şəhidlər xiyabanını ziyarət edib

**Ölkəmizdə rəsmi səfərdə olan Estoniya Respublikası parlamentinin (Riiqikoqu) Sədri Yüri Ratasın başçılıq etdiyi nümayəndə heyəti mayın 23-də Şəhidlər xiyabanını ziyarət edib.**



Estoniyanın parlament nümayəndə heyətinin üzvləri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edərək üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Daha sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən estoniyalı parlamentarilərə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Ziyarət zamanı Estoniya Riiqikoqunun nümayəndə heyətini Azərbaycan Milli Məclisi Sədrinin müavini Adil Əliyev və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*



# Kanada parlamentinin İcmalar Palatasının nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib

**Ölkəmizdə səfərdə olan Kanada parlamentinin İcmalar Palatasının Kanada Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri mayın 23-də Şəhidlər xiyabanını ziyarət ediblər.**



Nümayəndə heyəti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edərək üzərinə tər güllər qoyub. Qonaqlar həmçinin "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Daha sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən kanadalı deputatlara Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Kanada ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Tural Gəncəliyev müşayiət edib.

*"Azərbaycan"*

# Nazir Rəşad Nəbiyev Estoniya parlamentinin Sədri Yüri Ratasla görüşüb

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ölkəmizdə rəsmi səfərdə olan Estoniya parlamentinin sədri Yüri Ratasın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında kibertəhlükəsizlik, informasiya texnologiyaları və dəmir yolu sahələrində potensial əməkdaşlıq məsələləri müzakirə olunub.

# Möhtəşəm fəaliyyətlə qazanılan yüksək nüfuz

## ABŞ Prezidenti Cozef Baydenin məktubu bu nüfuzun bir daha təsdiqidir!

**Dünya miqyasında görünmək, fərqlənmək, tanınmaq və yüksək nüfuz qazanmaq o qədər də asan məsələ deyil!**

**Xüsusən də mahir siyasətçi və uzaqgörən dövlət başçısı kimi!**

**Yenicə dövlət müstəqilliyi qazanan nisbətən kiçik ölkələrin rəhbərlərinin isə nüfuz sahibinə çevrilməsi daha çox zaman tələb edən mürəkkəb prosesdir!**

Böyük, əsrlərlə ölçülən demokratiya təcrübəsinə və tarixinə malik dövlətlər üçün bu, elə də problem sayılmır.

Çünki dövlətin keçmişdə qazandığı imic, iqtisadi, hərbi güc, beynəlxalq qurum və təşkilatlardakı sabitləşmiş yer və mövqe dövlət başçısının nüfuzuna əlavə dividendlər gətirir.

*"Cavan" dövlətlər isə bütün bunlardan məhrumdurlar və həmin vəzifələri özləri yerinə yetirərək, zəruri işləri şəxsən görməlidirlər!*

BELƏ Kİ:

- İqtisadiyyatı qaldırmaq və inkişaf etdirmək;
- Demokratik prinsip və tələbləri bərqərar edərək genişləndirmək, gündəlik həyat tərzinə çevirmək;
- Beynəlxalq qurum və təşkilatların işində yaxından iştirak edərək diqqətçəkən və faydalı təkliflər vermək, təşəbbüslər irəli sürməyi bacarmaq;
- Digər dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı hörmətə və maraqlara əsaslanan münasibətlər qurmaq;
- Dünyada baş verən hadisə və proseslər zamanı düzgün mövqe tutmaqla səhvsiz addımlar atmaq;
- Habelə bir sıra şəxsi keyfiyyətlərə - yüksək diplomatik bacarığa, ünsiyyət qurmaq məharətinə, cəlbedici və maraqlı nitq qabiliyyətinə, müxtəlif dillərdə təmiz danışmaq imkan və istedadına malik olmaq!

**Tanrı bütün bu bacarıq və keyfiyyətləri Azərbaycan Prezidenti cənab İlham Əliyevə səxavətlə verib!**



*İlham Əliyev Heydər Əliyev məktəbində əyani təhsil alan və həmin "universiteti" fərqlənmə diplomu ilə bitirən yeganə "məzun" sayılır!*

*İlham Əliyev dünyanın ən tanınmış təhsil ocaqlarından biri olan Moskva Beynəlxalq Münasibətlər İnstitutunda nəinki müvəffəqiyyətlə təhsil alaraq oranı fərqlənmə diplomu ilə bitirib, hətta sonradan dərs də deyib.*

*İlham Əliyev heç bir kağıza və tezisə baxmadan saatlarla, ən maraqlı və gerçək faktlara, rəqəmlərə istinad etməklə parlaq nitqlər söyləyir.*

*İlham Əliyev saatlarla, dörd dildə danışmaqla dünyanın ən tanınmış KİV-inin, informasiya agentliklərinin, telekanalların müxbirlərinin bütün suallarını xüsusi bacarıq və məharətlə cavablandırır.*

*İlham Əliyev çaşanlara çox mədəni və etik şəkildə yerini göstərməklə layiq olduqları cavabı verib susdura bilir!*

*İlham Əliyevin sözü imzası qədər etibarlıdır, dediyini hökmən edəndir!*

*İlham Əliyevin sevgisi də müqəddəsdir, qəzəbi də!*

**Biz bütün bu deyilənlərin möhtərəm Prezidentimizin on doqquz illik rəhbərliyi dövründə, 44 günlük Zəfər müharibəsində dəfələrlə, dönə-dönə canlı şahidi olmuşuq!**

**Azərbaycanın dövlət başçısı dünya miqyasında aydın görünən, obyektiv, dəyərli söz sahibi olan, daim qətiyyətli və ədalətli mövqe nümayiş etdirən liderlərdəndir!**

**O, beynəlxalq tədbirlərə daim dəvət alan, çıxışları və təşəbbüsləri hörmətlə dinlənilərək bəyənilən dövlət rəhbərlərindəndir.**

*Hazırkı nüfuz və sanbalı təkcə Azərbaycanı qısa müddətdə güclü, sayılıb-seçilən və Cənubi Qafqazın lider dövlətinə çevirməsi ilə deyil, həm də BMT Təhlükəsizlik Şurasının iclaslarına sədrliyi, İslam Əməkdaşlıq Təşkilatına, Qoşulmama Hərəkatına rəhbərliyi dövründə, habelə COVID-19 pandemiyasına qarşı mübarizə zamanı nümayiş etdirdiyi prinsipial, humanist addımlarla bağlıdır.*

**ABŞ Prezidenti Cozef Baydenin Azərbaycan Prezidentinə ünvanladığı məktubda söylənilən fikirlər, habelə fəaliyyətinə verilən yüksək dəyər əslində cənab İlham Əliyevin uzun illər ərzində həyata keçirdiyi praqmatik siyasətin də etirafı və qiymətləndirilməsidir.**

*"Əsl siyasət konkret və real iş görməkdən ibarətdir" söyləyən cənab İlham Əliyev dediklərini etmiş, verdiyi vədləri daim həyata keçirmiş, sözü ilə imzasının vəhdət təşkil etdiyini sübuta yetirmişdir!*

*Azərbaycanın inkişafı və xalqın rifahı naminə gördüyü işlərin, habelə dünyaya verdiyi dəyərli töhfələrin sayı-hesabı isə yoxdur.*

Ölkəmizin yüksəlişi və beynəlxalq aləmdə müsbət imic qazanması naminə İlham Əliyevin gördüyü işlərə qısa nəzər salaq:

- Bütün dünya üçün faydalı olan Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars layihələrini əngəlləri dəf edərək və çətinliklərə üstün gələrək reallaşdırmışdır;
- "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərini işə salmış, Azərbaycanı tranzit logistika mərkəzinə çevirmişdir;
- Azərbaycanı terrorizmə qarşı mübarizədə fəallıq göstərən dövlət kimi tanıtmışdır;
- Avropanın enerji təchizatına dəyərli töhfələr verilməsini təmin etmişdir;
- Dünyada idmanın inkişafına Azərbaycanın öz sözünü söyləməsinə nail olmuşdur;
- Beynəlxalq təşkilatlara sədrliyi dövründə daim hamı tərəfindən bəyənilən təşəbbüslər irəli sürmüşdür;
- Ləyaqətli müharibə apararaq, 44 gün ərzində işğal altındakı torpaqları azad edərək Azərbaycanı qalib və qürurlu millət kimi tanıtmışdır;
- Dəfələrlə Ukraynaya humanitar yardımların göndərilməsini təmin etmişdir;
- Bu gün isə Ermənistanla sülh müqaviləsi bağlanılması, Cənubi Qafqazın sülh və əməkdaşlıq regionuna çevrilməsi üçün aydın və konkret mövqe ortaya qoyur!

*ABŞ Prezidentinin məktubunda bütün bu məqamlara toxunulmuş, görülən işlərin dəstəkləndiyinə aydın işarələr verilmişdir.*

*Odur ki, Cozef Baydenin məktubundakı fikirlər hər bir azərbaycanlının qəlbindən xəbər verməklə bərabər, həm də razılıqla qarşılanır!*

Məktubda yer alan bir neçə məqama diqqət yetirək:

- "Azərbaycan Avropa və dünya bazarlarının təhlükəsizliyinin təmin olunması və sabitləşdirilməsində önəmli rol oynayır".
- "...Sizin terrorizmə qarşı qlobal mübarizəyə verdiyiniz əhəmiyyətli töhfələrinizi təsdiq edirik".
- "Rusiyanın Ukraynaya qarşı müharibə ilə beynəlxalq təhlükəsizliyin əsas sütunlarını sıradan çıxarmağa çalışdığı bu qlobal qeyri-sabitlik dönəmində Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyi və suverenliyinə öz dəstəyini bir daha təsdiq edir".
- "Azərbaycanın Ukraynanın suverenliyinə dəstəyi, habelə Ukraynaya göstərdiyi humanitar və enerji sahəsində yardımı vacib ismarıc verir".
- "Amerika Birləşmiş Ştatları bütün Qafqaz və trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan ilə Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə və Azərbaycanın iqtisadi, nəqliyyat və insanlararası əlaqələrinin qurulmasına kömək etməyə hazırdır".
- "Biz qarşıdan gələn illər və onilliklərdə münasibətlərimizi daha da dərinləşdirmək arzusundayıq".

❖ ❖ ❖

Məktubda yer almış bütün bu fikirlər eyni zamanda:

- Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi müdrik siyasətə verilən yüksək qiymətdir;
- 44 günlük Zəfər müharibəsinin nəticələrini bəyənməkdir;
- Azərbaycanın atdığı bütün addımların doğruluğunun təsdiqidir!
- Azərbaycanın irəli sürdüyü beş prinsip əsasında aparılan sülh danışıqlarına dəstəkdir!
- Həm də bədxahlarımıza, araqarışdıranlara verilən ciddi mesajdır!
- Cənubi Qafqazdakı yeni reallıqların etirafı və qəbul edilməsidir!
- ABŞ-ın Azərbaycanla birgə olduğunu göstərən əyani sübutlardır!

**Bütövlükdə ABŞ Prezidentinin Azərbaycanın dövlət başçısına göndərdiyi bu məktub Prezident İlham Əliyevin beynəlxalq miqyasda gördüyü işlərin ən yüksək formada və açıq şəkildə bəyənilməsi, dəstəklənməsidir!**

**Dostlar sevinsin, düşmənlər...**

**Bəxtiyar SADIQOV**

# Sülh danışıqları Azərbaycanın şərtləri əsasında aparılacaq

## İlham Əliyev Ermənistanı öhdəliklərini yerinə yetirməyə məcbur edir

Prezident İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında mayın 22-də "Brüssel prosesi" çərçivəsində növbəti üçtərəfli görüş keçirildi. Görüşün yekunlarına dair Şarl Mişelin mətbuata verdiyi açıqlamalar göstərir ki, ötən ilin dekabrından başlamış bu prosesin müzakirə mövzusu olan bütün məsələlər regionda yaranmış yeni reallıqların prinsiplərini özündə ehtiva etməklə Azərbaycanın milli maraqlarına tam uyğundur.

### Aİ-nın təşəbbüsləri Azərbaycanın mövqeyi ilə uzlaşır

Bu görüş bir daha təsdiq etdi ki, Aİ-nin dəstəyi və təşəbbüsləri ilə Azərbaycanla Ermənistan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format müəyyənləşib. Bu isə hələ müharibədən əvvəl mövcud olmuş formatlarla müqayisədə obyektivdir. Aİ Şurasının prezidenti Şarl Mişelin iki dövlət arasındakı münasibətlərin normallaşdırılması istiqamətində təşəbbüsləri, bu prosesə dəstəyi tamamilə tərəfsizdir. Bu baxımdan Aİ Şurası prezidentinin münasibəti bir vaxtlar Minsk qrupunun həmsədrlərinin ortaya qoyduqları mövqedən tamamilə fərqlənir və real nəticənin əldə olunmasına hesablanıb.

Elə buna görə də üçtərəfli görüşdən əvvəl Prezident İlham Əliyevlə Şarl Mişel arasında keçirilən təkbətək görüşdə dövlətimizin başçısı Aİ Şurası prezidentinin Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması, iki ölkənin münasibətlərinin normallaşdırılması, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin delimitasiyası və demarkasiyası proseslərinə verdiyi dəstəyi yüksək qiymətləndirdi.

Aİ Şurası prezidentinin üçtərəfli görüşlərdən sonra verdiyi bəyanatların məzmunu bir vaxtlar Minsk qrupunun həmsədrlərinin hər addımda ortaya qoyduqları ikili standartlardan uzaqdır və münasibətlərin normallaşdırılması üçün konkret hədəfləri ehtiva edir. Bu da Aİ-nin timsalında Azərbaycanla Ermənistan arasında sülhün təmin olunmasına hesablanmış vasitəçilik missiyasına olan etimadı təmin edən mühüm amildir. Brüssel formatında aparılan müzakirələrdə Avropa İttifaqının ortaya qoyduğu mövqe Azərbaycanın regionda təhlükəsizliyin və rifahın təmin edilməsinə hesablanmış təşəbbüsləri ilə uzlaşır. Aİ də hesab edir ki, artıq gələcəyə baxmaq, yeni reallıqlar çərçivəsində münasibətləri normallaşdırmaq lazımdır.

### İndi Minsk qrupunun dövranı deyil

Məlum olduğu kimi, aprelin 6-da keçirilmiş görüşün nəticələrinə uyğun olaraq, Azərbaycan sülh müqaviləsi üzrə danışıqlara başlamaq üçün İşçi Qrupunun tərkibini, həmçinin sərhədlərin delimitasiyası üzrə milli komissiyanın tərkibini müəyyənləşdirib və bu xüsusda danışıqlara hazır olduğunu bildirib.

Lakin Ermənistan tərəfdən aprelin 6-dan sonra əldə olunmuş razılaşmalara uyğun olaraq heç bir addım atılmadı. Aprelin 6-da Brüsseldə əldə olunan razılaşmaya görə, tərəflər arasında müvafiq görüşlər keçirilməli idi. Ermənistan sərhədlərin delimitasiyasına dair ilk görüşün iki ölkənin sərhədində keçirilməsi barədə təklif irəli sürmüşdü, Azırbaycan da bu təklifi dəstəkləmişdi. Amma Ermənistan artıq aprelin 29-na razılaşdırılmış görüşü ləğv etdi, daha sonra isə 7-11 may tarixlərində sərhəddə yeni görüşün keçirilməsi barədə razılaşmanı icra etmədi. Bununla da Ermənistan razılaşdırılmış görüşdən boyun qaçırdı.



Ona görə gözlənilən idi ki, bu məsələ Brüsseldə xüsusi müzakirə olunacaq və ilk növbədə Ermənistan rəhbərliyindən bütün bunlara aydınlıq gətirilməsi tələb ediləcək. Təsadüfi deyil ki, Şarl Mişel mayın 22-də keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlamasında əldə edilən nəticələrdən bəhs edərkən ilk olaraq bu barədə danışdı. Aİ Şurasının prezidenti qeyd etdi ki, sərhəd məsələləri ilə bağlı sərhəd komissiyalarının birinci birgə iclası dövlətlərarası sərhəddə yaxın günlərdə baş tutacaq, bu iclasda sərhədin delimitasiyası və sabit vəziyyətin ən yaxşı şəkildə necə təmin edilməsi ilə bağlı bütün məsələlərə toxunulacaq.

Beləliklə, bundan əvvəl razılaşdırılmış iclaslardan imtina edən Ermənistan indi üzərinə yeni öhdəlik götürüb. Bundan da boyun qaçırmaq İrəvanın sülh prosesinə destruktiv yanaşması olar. Amma indi Minsk qrupunun dövranı deyil. Aİ-nın vasitəçiliyi ilə aparılan danışıqlar isə Ermənistana verilən son şansdır. Əks təqdirdə itirən yenə Ermənistan olacaq.

### İrəvanın prosesləri ləngitmək cəhdləri iflasa uğradı

Budəfəki üçtərəfli görüşdə də tərəflərin razılaşdıqları bütün məsələlər "Brüssel prosesi"nin Azərbaycanın milli maraq və mənafelərinə uyğun getdiyini göstərdi. Məsələn, görüşdə Ermənistanın hələ 10 noyabr bəyanatında üzərinə götürdüyü öhdəliyə uyğun olaraq kommunikasiya ilə əlaqədar nəqliyyat əlaqələrinin açılması istiqamətində işlərin davam etdirilməsi zərurətindən bəhs olunub. Tərəflər Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında tranzitləri, habelə hər iki ölkənin kommunikasiya infrastrukturu vasitəsilə beynəlxalq nəqliyyat daşımalarını tənzimləyəcək prinsiplər üzərində razılığa gəliblər. Beynəlxalq daşımalar kontekstində sərhəd idarəetmə prinsipləri, təhlükəsizlik, eləcə də gömrük rüsumları və qaydaları barədə də razılığa gəlinib və yaxın günlərdə baş nazirlərin müavinləri bu işi davam etdirəcəklər.

Əldə olunan razılıqlardan biri də dövlətlərarası münasibətləri tənzimləyən gələcək sülh müqaviləsinə dair müzakirədir. Yaxın həftələrdə xarici işlər nazirlərinin başçılıq etdikləri nümayəndə heyətləri bu prosesi davam etdirəcəklər.

Aİ Şurasının prezidenti mətbuata açıqlamasında Ermənistanın son günlər yenidən qabartdığı status məsələsinə toxunmadı. Qarabağdakı mülki ermənilərin təhlükəsizliyinə isə Azərbaycan dövləti zəmanət verir. Bu baxımdan üçüncü görüş bir daha təsdiq etdi ki, Aİ Azərbaycanın yaratdığı yeni reallıqları bölüşür və "Brüssel prosesi" Bakının mövqeyinə və mənafeyinə uyğundur. Azərbaycanın növbəti siyasi-diplomatik uğuru olan üçüncü Brüssel görüşü həm də onu təsdiq etdi ki, Ermənistanın müxtəlif iddialarla üçtərəfli razılaşmaların tələb etdiyi prosesləri ləngitmək cəhdləri iflasa məhkumdur.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Şuşa bu dəfə Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin komitələrinin iclasına evsahibliyi etdi

**Mayın 22-də Şuşa şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin VII üçtərəfli iclası keçirilib.**






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin nümayəndə heyətinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyətinə parlamentin Xarici əlaqələr komitəsinin sədri Akif Çağatay Kılıç, Gürcüstan nümayəndə heyətinə isə bu ölkə parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Samxaradze başçılıq ediblər.

Qonaqları Azərbaycanın mədəniyyət paytaxtında salamlamaqdan şad olduğunu söyləyən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, bu gün Siz azad Şuşadasınız. O, diqqətə çatdırıb ki, Azərbaycan 44 günlük Vətən müharibəsində 30 ilə yaxın Ermənistanın işğalı altında olmuş ərazilərini Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edib. Komitə sədri bildirib ki, bu görüş bizim Şuşada ilk görüşümüzdür.

O, bu tədbirin təşkilinə verdiyi dəstəyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü ifadə edib.

Səməd Seyidov nəzərə çatdırıb ki, Ermənistan işğal altında saxladığı ərazilərdə Azərbaycanın tarixi, maddi-mədəni irsini dağıdıb, şəhərlərimizi və kəndlərimizi məhv edib. Təsadüfi deyil ki, bu əraziləri Qafqazın Xirosiması adlandırırlar. O qeyd edib ki, həmin ərazilərdə bərpa-quruculuq işləri aparılır və hələ görülməli işlər çoxdur. Komitə sədri bu görüşün Şuşada keçirilməsinin önəmindən danışaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfərlərinin və Şuşa Bəyannaməsinin imzalanmasının tarixi əhəmiyyətini qeyd edib. O, Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında keçirilmiş görüşlərdən danışıb. Səməd Seyidov tezliklə iki ölkə arasında sülh müqaviləsinin imzalanacağına inamını ifadə edib.

Çıxış edən Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Samxaradze bu görüşün təşkilinə görə təşəkkürünü bildirib. Qeyd edib ki, bu format bizim inkişafımız üçün gözəl zəmin yaradır. Belə tədbirlər regional əməkdaşlıqda parlamentlərin rolunu nəzərdən keçirmək baxımından mühüm əhəmiyyətə malikdir.

Nikoloz Samxaradze parlamentlərdə fəaliyyət göstərən dostluq qruplarının, beynəlxalq parlament təşkilatlarında əməkdaşlığın ölkələrimiz arasında əlaqələrin inkişafında xüsusi rol oynadığını qeyd edib. Gürcüstan parlamentinin komitə sədri ölkələrimiz arasında həyata keçirilən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars layihələrinin regional əməkdaşlıqda rolu və ölkələrimiz arasında iqtisadi əməkdaşlığın perspektivləri barədə fikirlərini bölüşüb.

Sonra çıxış edən Türkiyə Böyük Millət Məclisinin Xarici işlər komitəsinin sədri Akif Çağatay Kılıç bu formatda keçirilən görüşlərin əhəmiyyətini qeyd edib, bu görüşün Azərbaycanın işğaldan azad olunmuş Şuşa şəhərində təşkilinə görə təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra Ermənistanla münasibətləri normallaşdırmağa çalışır. Biz öz gələcəyimizi təmin etmək üçün səylərimizi birləşdirməliyik. Parlamentlər və onların nümayəndələri öz xalqlarının təmsilçiləri kimi gələcək naminə çalışmalıdırlar. Türkiyə Azərbaycanı dəstəkləyir və inanır ki, tezliklə iki ölkə arasında münasibətlər yaxşılaşacaq, regionda davamlı sülh və sabitlik yaranacaqdır.

Sonra çıxış edən hər üç ölkənin deputatları Asim Mollazadə, Derya Bakbak, Mehmet Güzelmansur, Sevinc Fətəliyeva, Nigar Arpadarai, Davit Zilpimiani, Kamil Aydın və başqaları belə birgə iclasın azad edilmiş ərazilərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilməsinin əhəmiyyətindən danışıblar.

Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri Rasim Musabəyov, Ramil Həsən, Sahib Alıyev, Elman Nəsirov, Nəsib Məhəməliyev, Azər Kərimli, Sevil Mikayılova, Cavanşir Feyziyev, Ramin Məmmədov, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin üzvləri və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Gürcüstandan gələn müsəlman din xadimləri Gəncədə Ermənistanın müharibə cinayətləri ilə tanış olublar



**Gürcüstandan gələn müsəlman din xadimləri 2020-ci ilin oktyabrında Gəncədə erməni terroru nəticəsində çoxsaylı dinc sakinin öldüyü, yaralandığı və böyük dağıntıların yarandığı əraziyə gəliblər.**

AZƏRTAC xəbər verir ki, qonaqlar baş verən terror aktı barədə məlumatlandırılıblar. Bildirilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri 44 günlük Vətən müharibəsində beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutublar.

Düşmənin Azərbaycanın ikinci böyük şəhəri, yarım milyon əhalisi olan və münaqişə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olub, 142 nəfər isə yaralanıb. Şəhərdə mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Qeyd olunub ki, əhalinin sıx yaşadığı ərazilərə "Toçka-U", "Smerç", "Skad" və digər raketlərlə gecə saatlarında hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyıb. Baxmayaraq ki, dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir, Ermənistan beynəlxalq hüquqa məhəl qoymadan müharibə cinayətlərini davam etdirib.

Nümayəndə heyətinin üzvləri şəhid olan mülki şəxslərin ruhlarına dualar oxuyublar.

# Gürcüstanın din xadimləri Füzuli rayonuna səfər ediblər






**Azərbaycanın Gürcüstandakı səfirliyinin təşkilatçılığı və SOCAR-ın Gürcüstan Nümayəndəliyinin dəstəyi ilə ölkəmizə səfərə gələn Gürcüstanın din xadimlərindən ibarət nümayəndə heyəti işğaldan azad edilmiş Füzuli rayonunda olub.**





AZƏRTAC xəbər verir ki, səfər iştirakçıları əvvəlcə Merdinli kəndində erməni barbarlığı ilə tanış olublar. Məlumat verilib ki, erməni vandalları 27 il ərzində kəndi talayıb, yer üzündən siliblər. Bütün evlər, sosial obyektlər dağıdılıb, təsərrüfatlar məhv edilib. Düşmən Merdinli kəndindəki məsciddən mal-qara tövləsi kimi istifadə etməklə azərbaycanlılara qarşı öz nifrətini nümayiş etdirib. Kənd qəbiristanlığı da erməni vandalizminə məruz qalıb - məzarlar dağıdılıb, məzar daşları uçurulub.

Nümayəndə heyəti Füzuli Beynəlxalq Hava Limanına da gəlib. Bildirilib ki, 44 günlük Zəfər yürüşü zamanı azad edilən torpaqlarda Azərbaycan tərəfindən irimiqyaslı tikinti-quruculuq işləri aparılır. Bu işlər çərçivəsində Füzulidə qısa zamanda beynəlxalq hava limanı inşa olunub. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Artıq hava limanı xarici ölkələrdən təyyarələr qəbul edir.

Gürcüstanlı qonaqlar Füzuli şəhərinin mərkəzində də erməni vəhşiliyinin şahidi olublar. Məlumat verilib ki, şəhər tamamilə viran edilib, yaşayış binaları ilə bərabər, tarixi-mədəni abidələr də dağıntılara məruz qalıb. Həmçinin şəhərin təbiəti, ağaclar və yaşıllıqlar məhv edilib.

Füzulidə erməni barbarlığı ilə tanış olan qonaqlar Şuşa şəhərinə yola düşüblər.

# Gürcüstanın din xadimləri Şuşa şəhərini ziyarət ediblər






**Azərbaycanın Gürcüstandakı səfirliyinin təşkilatçılığı və SOCAR-ın Gürcüstan Nümayəndəliyinin dəstəyi ilə ölkəmizə səfərə gələn Gürcüstanın din xadimlərindən ibarət nümayəndə heyəti işğaldan azad edilmiş Ağdam və Füzuli rayonlarından sonra Şuşa şəhərində olub.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşı qonaqlara Şuşa şəhəri, burada həyata keçirilən yenidənqurma işləri barədə məlumat verib. Qonaqların diqqətinə çatdırılıb ki, 30 ilə yaxın işğal dövründə şəhərdəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Nümayəndə heyəti əvvəlcə Şuşanın qala divarlarına baxıb. Din xadimlərinə məlumat verilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, yenilməzlik simvolu olub. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Gürcüstanlı din xadimləri sonra Xurşidbanu Natəvanın evi və Xan qızı bulağının yerləşdiyi ərazi ilə tanış olub, Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinin qoyulduğu Şuşa şəhər mərkəzi meydanına gəliblər. Onlar şəhər və güllələnmiş heykəllər barədə məlumatlandırılıb. Bildirilib ki, işğal zamanı ermənilər heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

Qonaqlar daha sonra Bülbülün ev-muzeyinə gəlib, görkəmli musiqiçinin uşaqlıq illərinə aid şəkillərə, şəxsi əşyalarından ibarət ekspozisiyaya baxıblar.

Gürcüstandan gəlmiş din xadimləri Şuşa şəhərində Yuxarı Gövhər ağa, Çuxur Məhəllə və Seyidli məscidlərinə baxış keçiriblər. Məlumat verilib ki, qədim Şuşada 17 məhəllə olub. Hər məhəllədə hamam, məscid və bulaq var idi. Qədim məhəllələrdəki tarixi-memarlıq nümunəsi olan bu tikililər, o cümlədən məscidlər də erməni vandalizminə məruz qalıb.

Nümayəndə heyəti Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi ilə də tanış olub, Cıdır düzündən açılan əsrarəngiz mənzərəni seyr edib. Sonda Cıdır düzündə şükür namazı qılınıb.

# Bakı səmalarında "Akıncı" qüruru



**Dünən Bakı səmalarında maraqlı anlar yaşandı. Paytaxt sakinləri qardaş Türkiyənin Bayraktar "Akıncı" Silahlı İnsansız Hava Aparatlarının (SİHA) və qırıcı təyyarələrinin aviaşousunun məşqlərinə tamaşa etdilər.**

Pilotların idarə etdikləri qırıcıların səsi vahiməli olsa da, bu uçuşlar hər kəsdə sevinc, qürur hissi yaşatdı. Çünki hər kəsə, eləcə də dünyaya bəllidir ki, Azərbaycan 44 günlük Vətən müharibəsində işğlçı Ermənistana qarşı müasir formalı, yəni "smart müharibə" apararaq şanlı zəfər qazanıb. Məhz Bayraktar pilotsuz uçuş aparatları (PUA) vasitəsi ilə düşmənin komanda müşahidə məntəqələri, silah-sursat anbarları, hərəkətdə olan hərbi texnika və canlı qüvvəsi, ölkəmizin ərazisinə atılması hədəflənən "S 300" və digər raket kompleksləri məhv edilmişdir. Əldə etdiyimiz şanlı zəfərdə Bayraktar PUA-larının əvəzsiz xidmətləri olmuşdur.

Bu uçuşlar mayın 26-29-da Bakıda keçiriləcək "TEKNOFEST-Azərbaycan" festivalı ərəfəsində edilən sınaq məşqləri idi. Həftəsonu həm paytaxt sakinləri, həm də dünya Bakı səmalarında daha möhtəşəm aviaşouya şahidlik edəcək.

Türkiyənin Təkirdağ əyalətinin Çorlu rayonundan səmaya qalxan Bayraktar "Akıncı" Silahlı İnsansız Hava Aparatları (SİHA) Gürcüstan üzərindən Azərbaycana gəlib. Türkiyənin müasir texnologiyası sayılan "Akıncı" təxminən 2 min km məsafəni uğurla qət edib.

"Akıncı"nın inkişaf etdirilməsinə 2017-ci ilin may ayında başlanılıb. Onun ilk uçuşu 2019-cu il dekabrın 6-da həyata keçib. İlk uçuş zamanı PUA 16 dəqiqə havada qalıb. Prototipin ikinci uçuşu isə 2020-ci il yanvar ayının 10-da baş tutub, həmin uçuş zamanı PUA 1 saatdan artıq havada olub. "Akıncı"nın ikinci prototipinin ilk uçuşu 2020-ci il avqustun 13-də həyata keçirilib.

"Baykar Holdinq" tərəfindən istehsal edilən "Akıncı" pilotsuz təyyarələri artıq havada azı 24 saat fasiləsiz qala bilir. 12 min metrdən çox yüksəklikdə uçur və bazadan 150 kilometr uzaqda, tam müstəqil rejimdə əməliyyatlar həyata keçirə bilir.

Göyərtəsində 3 ədəd süni intellekt kompüteri olan "Akıncı" dronları eyni zamanda yerüstü kəşfiyyat aparır, sensorlar və yüksək həssaslığa malik kameralar vasitəsilə məlumatları toplayıb müstəqil rejimdə təhlil edir, habelə komanda mərkəzinə ötürür. Digər mühüm özəlliyi isə budur ki, həmin pilotsuz sistemlər bütöv eskadrilya halında döyüşdə tətbiq edilə bilir, bu zaman dronlar süni intellekt vasitəsilə bir-biriləri ilə koordinasiya içərisində olur. "Akıncı" qiyməti 4-5 milyon dollar olan bir və ya bir neçə tankı asanlıqla məhv etmək iqtidarındadır.

İnanırıq ki, keçiriləcək "TEKNOFEST-Azərbaycan" festivalında insanların, dövlətlərin daha çox maraq göstərəcəyi texnologiyalardan biri də məhz "Akıncı" PUA-ları olacaq.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Sosial sığorta ilə bağlı qanunvericilik təkmilləşdirilir

**Mayın 23-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin növbəti iclası keçirilib. İclasda "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edilib.**

Komitə sədri Musa Quliyev bildirib ki, qanunun preambulasına və doqquz maddəsinə ümumilikdə 53 dəyişiklik təklif olunub. O, bu dəyişikliklərin qanunun təkmilləşdirilməsinə yönəldiyini söyləyərək bildirib ki, qanunun preambulasına edilən dəyişiklik onun tətbiq sahəsini xeyli genişləndirir və Azərbaycan Respublikasının vətəndaşı olmayan, ölkəmizdə çalışan və sığorta olunan şəxslərin sığorta uçotuna alınmasına və sığortaya cəlb olunmasına geniş imkan yaradır.

Sonra iclasda iştirak edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri Elnur Abbasov "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" qanuna edilən dəyişikliklərin mahiyyəti barədə məlumat verib. Bildirib ki, qanuna təklif olunan dəyişikliklər bir neçə zərurətdən irəli gəlib. Belə ki, sənəddə "Sığorta haqqında" qanuna edilən dəyişikliklərlə əlaqədar təkmilləşdirmə xarakterli düzəlişlər, habelə məlumat mənbələrinin genişləndirilməsi, elektron resurslar üzərindən əməliyyatların aparılmasına imkan verən bazanın yaradılması və bəzi dəqiqləşdirmə xarakterli əlavə və dəyişikliklər nəzərdə tutulub.

Layihədə qanunda istifadə olunan anlayışların açıqlanması,"fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı" anlayışının "sığortaçı" anlayışı ilə əvəz edilməsi nəzərdə tutulub.Yeni redaksiyada verilən 4-cü maddədə fərdi uçotun sığortaçı tərəfindən elektron qaydada aparılması, bu sahədə elektron xidmətlərin elektron informasiya sistemi vasitəsilə həyata keçirilməsi, xidmətin xüsusiyyətləri nəzərə alınmaqla kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularının, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin işçilərinin fərdi uçotunun müəyyən edilmiş qaydada aparılması və digər məsələlər əks olunub.

Sənəddə sığortaolunanın fərdi şəxsi hesabına daxil edilən məlumatlar sırasına fərdi identifikasiya nömrəsinin (FİN), xüsusi hesabda qeydə alınan vəsait və onun indeksləşdirilməsi haqqında məlumatın əlavə edilməsi təklif olunur. Həmçinin qeyd edilir ki, sığortaolunanın fərdi şəxsi hesabının bağlanması onun fərdi uçot məlumatlarına əsasən, sosial sığorta ödəmələrinin, o cümlədən ötən dövr üçün sosial sığorta ödəmələrinin təmin edilməsindən imtina olunması üçün əsas deyil.

Qanunda nəzərdə tutulan digər düzəlişlərdə ödənilmiş məcburi dövlət sosial sığorta haqqının məbləğlərinin Maliyyə Nazirliyinin elektron sistemindən əldə edilmiş məlumat əsasında qeydə alınması nəzərdə tutulur. Bununla yanaşı, sığortaolunanın özü haqqda məlumatları elektron sistemdən əldə edə bilməsi, fərdi hesabda əks olunmuş məlumatlarla razılaşmadıqda, həmçinin məlumatlarda dəyişiklik baş verdikdə sığortaçı və sığortaedənə müraciət etmək hüququnun dəqiqləşdirilməsi təklif edilir.

Qanun layihəsi ətrafında gedən müzakirələrdə çıxış edən komitə sədrinin müavini Məlahət İbrahimqızı, komitə üzvləri Vüqar Bayramov, Jalə Əliyeva, Aqil Məmmədov, Arzu Nağıyev təklif olunan dəyişikliklərin mütərəqqi olduğunu qeyd ediblər, sənədi əhalinin sosial müdafiəsi istiqamətində ölkədə həyata keçirilən islahatların bir hissəsi kimi qiymətləndiriblər.

Müzakirələrin sonunda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Türkiyə və Gürcüstan parlamentlərinin nümayəndələri postmünaqişə dövründə regiondakı vəziyyət barədə məlumatlandırılıb

**Mayın 23-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin üçtərəfli birgə görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olan nümayəndə heyətlərinin rəhbərləri - Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Akif Çağatay Kılıç və Gürcüstan parlamentinin Xarici komitəsinin sədri Nikoloz Samxaradze ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, habelə Türkiyə və Gürcüstanın ölkəmizdəki səfirləri iştirak ediblər.

Nazir müavini Elnur Məmmədov Azərbaycanın həm Türkiyə, həm də Gürcüstanla ikitərəfli əsasda mövcud olan yüksəksəviyyəli strateji tərəfdaşlıq münasibətlərindən, habelə üçtərəfli regional əməkdaşlıq formatından məmnunluqla bəhs edib. Ölkələrimizin, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığı vurğulanıb. Üç ölkə arasında yüksəksəviyyəli siyasi dialoqla yanaşı, iqtisadi, ticarət, enerji, humanitar və sair sahələrdə əlaqələrin, habelə parlament səviyyəsində əməkdaşlığın dinamik inkişafı təqdir edilib.

E.Məmmədov qarşı tərəfə bölgədə mövcud olan postmünaqişə vəziyyəti, o cümlədən azad olunmuş ərazilərin minalardan təmizlənməsi, bərpa və quruculuq işləri, eyni zamanda, sülh quruculuğu istiqamətində Azərbaycan tərəfindən görülən işlər, Brüsseldə Ermənistan və Azərbaycan liderləri səviyyəsində keçirilmiş görüşlər və onların nəticələri barədə məlumat təqdim edib. Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunması münasibətilə silsilə tədbirlərin təşkil edildiyi vurğulanıb.

Görüş zamanı üçtərəfli formatda əməkdaşlıq məsələləri, regional və beynəlxalq gündəliyin aktual mövzuları, həmçinin Ukraynadakı vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# Heydər Əliyev Fondunun dəstəyi ilə Qubada ənənəvi yəhudi evi bərpa olunacaq

**Heydər Əliyev Fondunun dəstəyi ilə Qubada dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı qəsəbədə ənənəvi yəhudi evi bərpa olunacaq.**



AZƏRTAC xəbər verir ki, "Qırmızı qəsəbədə yəhudilərin ənənəvi evinin bərpası layihəsi" Amerika Birləşmiş Ştatlarının, İsrailin ölkəmizdəki səfirlikləri və Dağ Yəhudilərinin İrsi Mərkəzi ilə birlikdə həyata keçirilir.

Mayın 23-də Qubada layihənin başlanması ilə əlaqədar təşkil olunan tədbirdə Heydər Əliyev Fondunun departament direktoru, Milli Məclisin deputatı Soltan Məmmədov, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Örl Litzenberqer, İsrailin ölkəmizdəki səfiri Corc Dik iştirak edib.

Mərasim Qırmızı qəsəbədə dünyada ilk dəfə yaradılan Dağ Yəhudiləri Muzeyinin qarşısında təşkil olunub.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev çıxışında Qubanın tarixi, son dövrlərdə keçdiyi inkişaf yolu, burada yaşayan azsaylı xalqlar, rayondakı tolerantlıq mühiti haqqında ətraflı məlumat verib. Bildirilib ki, Qırmızı qəsəbədə sinaqoqlar, yəhudi dinini öyrədən dərnəklər, turist informasiya mərkəzi və bir çox digər görməli yerlər var.

"Prezident İlham Əliyevin xüsusi önəm verdiyi multikulturalizm ənənələrinin əsl nümunələrindən birini Qubanın Qırmızı qəsəbəsində görmək olar. Burada dağ yəhudiləri uzun illərdir tolerantlıq şəraitində yaşayırlar. Qubada dağ yəhudiləri ilə yanaşı, 20-dən çox etnik azlıqların nümayəndələri dostluq, qardaşlıq şəraitində, heç bir ayrı-seçkiliyə məruz qalmadan birgə yaşayır. Bu gün qeyd olunan layihənin Qubada reallaşmasına görə təşəkkür edirəm. Dağ yəhudilərinə məxsus evin bərpası həm tarixi, həm də turistik baxımdan böyük əhəmiyyət daşıyır", - deyə Ziyəddin Əliyev bildirib.

Heydər Əliyev Fondunun departament direktoru, Milli Məclisin deputatı Soltan Məmmədov bildirib ki, bu gün Azərbaycan bütün regionda sülh, əməkdaşlıq, dostluq, multikulturalizm dəyərləri və birlik siyasətini təbliğ edir. Qazandığımız və regionda nümayiş etdirdiyimiz bu dostluq siyasəti xalqımızın həmrəyliyi və beynəlxalq əməkdaşlarımızla olan sıx münasibətlərimizin nəticəsidir. Heydər Əliyev Fondu yarandığı gündən Azərbaycanın tarixi, mədəniyyəti və milli dəyərlərinin dünyada təbliği ilə yanaşı, həm ölkəmizdə, həm də Azərbaycandan kənarda müxtəlif dinlərin qardaşlığı, xalqların birliyi və dostluğu ilə bağlı çoxsaylı layihələr həyata keçirib.

Müasir Azərbaycanın qurucusu Heydər Əliyevin və bu gün onun yolunun davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin əsas istiqamətlərindən biri məhz multikulturalizm və dinlər arasında dostluq, qardaşlıq təşkil edir. Azərbaycan tərəfindən multikulturalizm dəyərlərinin təbliği beynəlxalq ictimaiyyət tərəfindən tanınır və qəbul olunur. Multikulturalizm Azərbaycanın dövlət siyasətinin ayrılmaz hissəsidir.

"Heydər Əliyev Fondu Fransanın müxtəlif vilayətlərində ondan çox kilsənin, o cümlədən Strasburq Kafedral kilsəsinin bərpa olunmasında yaxından iştirak edib. Bundan başqa, müsəlman aləmi üçün böyük bir yenilik olan, Azərbaycan Vatikanla əməkdaşlıq çərçivəsində katakombaların bərpasında çox böyük işlər görülüb. Fondun təşəbbüsü ilə ölkəmizdə də bir sıra dini məbədlərin bərpası həyata keçirilib. İsrail səfirliyi ilə əməkdaşlıq çərçivəsində Heydər Əliyev Fondu tərəfindən yəhudi uşaqları üçün tədris mərkəzinin açılması, sinaqoqun təmir olunması, bu yaxınlarda isə İsmayıllının Mücü kəndində yəhudi qəbiristanlığının bərpası kimi layihələr həyata keçirilib", - deyə Soltan Məmmədov bildirib.

Soltan Məmmədov Heydər Əliyev Fondunu iştirakı ilə reallaşan "Qırmızı qəsəbədə yəhudilərin ənənəvi evinin bərpası layihəsi"nin turizm baxımından çox əhəmiyyətli olduğunu və buranın gələcəkdə qonaqpərvərliyin bir nümunəsi kimi təqdim olunacağını qeyd edib.

"Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva hər zaman bütün bu layihələrin icrasına xüsusi diqqət yetirir. Xüsusilə Azərbaycanda yaşayan milli azlıqların bərabərhüquqlu həyat tərzi, Azərbaycan ictimaiyyətinin ayrılmaz bir hissəsi, dövlətimizin həyata keçirdiyi dinlərarası siyasətdən bəhrələnməsi üçün böyük dəstək göstərir", - deyə Milli Məclisin deputatı vurğulayıb.

Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Örl Litzenberqer Azərbaycanda mədəni müxtəlifliyin bariz nümunəsi olacaq və turistlərinin diqqətini çəkəcək layihədə iştirak etməkdən məmnunluğunu ifadə edib. "Burada Azərbaycan, ABŞ və İsrail bayraqlarının yanaşı dayanması məndə çox dərin təəssürat yaradır. Bu üç bayraq dini tolerantlıq və multikulturalizm siyasətinin əsas qayəsi, istiqaməti seçən ölkələri təmsil edir. Tolerantlıq bir-birimizin fərqliliklərini anlamaq və buna dözmək deyil. Bu müxtəliflikləri qeyd etmək və bəşəriyyətin dəyərləri olan bu fərqlilikləri qucaqlamaqdır. Biz bundan əvvəl də Heydər Əliyev Fondu və İsrail səfirliyi ilə ayrı-ayrılıqda bir sıra layihələr həyat keçirmişik. Amma bu, üç qurumun birlikdə həyata keçirdiyi ilk layihə olacaq. Bununla da daha bir ənənənin əsası qoyulur.

Mən fəxr hissi duyuram ki, ABŞ və İsrail Azərbaycanın dostları kimi bu ölkənin zəngin tarixinə, əsrarəngiz təbiətinə, gözəl insanlarına dəstək olur. Heydər Əliyev Fonduna həm Azərbaycanda, həm də ölkədən kənarda, dünya miqyasında gördüyü işlərə görə təşəkkür edirəm", - deyə səfir söyləyib.

İsrailin ölkəmizdəki səfiri Corc Dik Qubada həyata keçirilən unikal layihəyə dəstək göstərən tərəfdaşlara təşəkkür edib: "Qırmızı qəsəbədə Fətəli xan küçəsindən keçdik. Fətəli xan təxminən 300 il əvvəl bu yaşayış məntəqəsinin əsasını qoyub. Bu qəsəbənin salınması dağ yəhudilərinin təhlükəsizliyinin təmin olunması, onların dini etiqadlarını rahat şəkildə həyata keçirməsi, eyni zamanda onların tərəqqisi və rifahı, uşaqlarını rahat böyütməsi üçün vacib idi. Sonradan bura Azərbaycanın digər yerlərindən, Rusiyadan yəhudilər toplaşıblar. Buna görə də burada hər icmanın öz sinaqoqu var. Sonradan bura "Qafqazın Yerusəlimi" adı verilib. Keçmişə səyahət etmək imkanım olsaydı, Fətəli xanla görüşüb ona xoş niyyətin bu gün də davam etdiyini çatdırardım".

Səfir Corc Dik İsrail dövləti və xalqı adından Azərbaycana təşəkkür edib. "Qırmızı qəsəbə yəhudilərin və azərbaycanlıların birgə yaşadığı icmadır. Bu gün tarixi gün yaşanır. Burada ənənəvi yəhudi evi bərpa olunacaq. Qırmızı qəsəbədəki icmanın dünyada oxşarı yoxdur. Burada yaşayan icma üzvləri istəyirlər ki, qəsəbəyə investisiyalar cəlb olunsun. Buradakı iqtisadi şərait daha da yaxşılaşsın. Bütün bu işlərdə dəstəyini göstərən tərəfdaşlara təşəkkür edirəm", - deyə C.Dik qeyd edib.

Tədbirdə Qırmızı qəsəbə sakini Nisim Nisimov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin, Prezident İlham Əliyevin qəsəbəyə səfərləri, onların yerli icmaya diqqət və qayğısı barədə danışıb.

Yüz ildən çox yaşı olan yəhudi evinin bərpasının əsas məqsədi yerli etnik və dini mədəniyyəti qorumaq, eyni zamanda yeni turizm imkanları yaratmaqdan ibarətdir.

Tədbirin sonunda layihənin icrası ilə bağlı məlumat verilib.

# Azərbaycanlı rəssamın əsərləri "Hunten Kunts" beynəlxalq sərgisində nümayiş olunub

**Niderland Krallığının Ulft şəhərində "Hunten Kunst" adlı beynəlxalq incəsənət sərgisi təşkil olunub. Sərgidə 30 ölkədən 250 sənətkarın əsərləri sərgilənib.**

AZƏRTAC xəbər verir ki, sərgidə Benilüks Azərbaycanlıları Konqresinin (BAK) sədr müavini, tanınmış rəssam Rasim Hüseynovun əsərləri də nümayiş olunub.

"Hunten Kunts" beynəlxalq sərgisində nümayiş olunan sənət əsərləri əvvəlcədən seçim komissiyası tərəfindən seçilir. Sərgidə iştirak etmək üçün Rasim Hüseynov da əsərlərini sərginin seçim komissiyasına təqdim edib və onun əsərləri seçim komissiyası tərəfindən yüksək qiymətləndirilib.

Sərgi müddətində R.Hüseynovun müxtəlif janrlarda olan əsərlərinə ziyarətçilər böyük maraq göstəriblər.

Əsərlərində Azərbaycan ruhunu əks etdirən Rasim Hüseynov sərgi ziyarətçilərinin, eləcə də həmkarlarının suallarını cavablandırıb.

**«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 7 oktyabr (Bazar ertəsi günü) tarixli VIII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Düşənbə, 30 zilhiccə sənə 1336.
7 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə.
Kərratla gedən elanlar üçün güzəşt edilir.

## BAKI ŞƏHƏRİ VƏ ƏTRAFI ƏHALİSİNƏ ELANİ-RƏSMİ

1 – Bəzi başıpozuq əşqiya [quldurlar] və əşərranın [yaramazların] əğrazi-xüsusiyyələri [şəxsi məqsədləri] uğrunda kəndi-kəndilərinə məmur süsü verərək, gecə və ya gündüzləri bəzi erməni ailələrinə bilmüraciə filan və ya filan adamın polis müfəttişi və ya qradanaçalnik tərəfindən tələb edildiyindən bəhslə, kəndilərini götürdükləri və ya götürmək istədikləri xəbər alınmışdır.

2 – Əhali ümumən bilməlidir ki, hökumətcə kəndilərinə lüzum görülən hər hansı adamı gecə aramaya lüzum yoxdur; hökumət istədiyi təftişatı gündüz yapar. Binaileyh, gecə bu yolda müraciət vüquunda ilk tədbir olmaq üzrə hadisəni dərhal ən yaxın polis mərkəzinə xəbər verməli və gündüzləri 25-80 nömrəli, gecələri nisfülleyldən [gecə yarısından] sonra üçün 44-66 polis müfəttişliyinə telefon etməlidir.

3 – Polis vəzaifinin [vəzifələrinin] başıpozuqlarla əlaqəsi olmadığından, hüviyyət [şəxsiyyətini] və sifəti-rəsmiyyəsini [rəsmi kimliyini] uniformasıyla olmazsa belə, övraqi-rəsmiyyəsiylə [rəsmi sənədləri ilə] isbat edəmməyən heç bir kimsəyə əhali etibar və təbəiyyət [tabeçilik] etməməli və vüquunda [baş verdikdə] bərvəchiməruz [deyildiyi şəkildə] polisə ixbari-keyfiyyət olunmalıdır [hadisə xəbər verilməlidir].

4 – Tərəfimizdən şiddətlə təqib edilməkdə olduqlarından er və ya gec yaxalanacaq bu misilli əşxası [bu kimi şəxsləri] bilənlərin lütfən müfəttişliyə ixbar etməsi və bilib də səlaməti-ümumiyyə əleyhində bunları kətm edənlə-rin [gizlədənlərin] faili-müştərəkədd edilərək [cinayət ortağı hesab edilərək] ən şədid [şiddətli] cəzaya məruz qalacaqları əhəmiyyətlə elan olunur.

*2/10/34 [2 oktyabr 1918]*
*Azərbaycan Polis müfəttişi-ümumisi Bəhaəddin*

## ELANİ-RƏSMİ

Bakı, 7 təşrini-əvvəl 34 [7 oktyabr 1918].

Bakı şəhər[i] daxilində bilümum [bütün] sinema və teatrolardan arzu edilənlər açılaraq gecə saat on ikiyə qədər icrayilö'biyat etmələrində [əyləncə icra etmələrində] bir məhzur [maneə] olmadığı və əvvəlcə saat 8-ə qədər təyin olunan sərbəsti [icazə] müddətinin fi-mabə'd [bundan sonra] nisfülleylə [gecə yarısına] qədər təmdidinə [uzadılmasına] müsaidə olunduğu Bakı Komandanlığı tərəfindən əmr və təbliğ olunmaqla, keyfiyyət əhaliyə məlum olmaq üzrə elan olunur.

## ELAN

Oktyabr ayının 5-də 1918-ci ildə Azərbaycan Hökuməti tərəfindən verilən qərardad mövcibincə [qərardada uyğun olaraq] hamı neft mədənləri və onlara mütəəlliq [onlarla əlaqədar] idarələr yenidən sahiblərinə qaytarılmalıdır.

Bununla ümum firma sahiblərinə elan olunur ki, neft ehtiyatı və qeyri məhsul [hasil] ediləcək mədəniyyatın [mədən məhsullarının] miqdarı məlum olduqdan sonra mədənlərə, zavodlara və bunlarda olan əmlaka sahib olmaq olar. Bu barədə xüsusi elan olunacaqdır.

*Ticarət və Səna'ət naziri:*
*A. Aşurov.*

## ELAN

Projektor yaxar, makinələrini qayırır, projektordan anlar makinist var isə "Rotşild Evi"ndə Bakı Komandanlığına gəlsin.

*Bakı Komandan vəkili: Miralay [Polkovnik].*

## HÖKUMƏT ƏMRLƏRİ

**Ticarət, Səna'ət [Sənaye] və Ərzaq Nəzarətindən [Nazirliyindən]**

45 – 23 eylül [sentyabr] – Hökumətin Bakı şəhərinə köçdüyünə binaən, bu eylül ayının 23-dən mən Ticarət, Səna'ət və Ərzaq nazirliyi vəzifəsini icraya başladığımı hamı mütəəlliq [əlaqədar] idarə və müəssisələrə elan edirəm.

46 – 28 eylül – Mühəndis Lanq eylülün 24-dən neft istiqraz kontroloru [müfəttişi] təyin olunur.

47 – Həmin eylül ayının 21-dən Sadiq Əhmədovu Ticarət, Səna'ət və Ərzaq Vəzarəti [Nazirliyi] cənbində [nəzdində] baş məmur təyin edirəm.

* * *

Mühəndis Şahbaz bəy Rüstəmbəyovu Xalq Təsərrüfatı Şurasının cənbindəki Ticarət şöbəsini təsfiyə etmək [təmizləmək] üçün nazir [müfəttiş] təyin edib, qulluqçuları nəsb və əzl [işə qəbul və işdən azad] etməyə məmur edirəm.

* * *

Xüsusi qanun verilənədək, Xalq Təsərrüfatı Şurasının ləğv olmayıb, Ticarət, Səna'ət və Ərzaq nazirinin nəzarəti ilə fəaliyyətdə bulunmasını lazım bilirəm.

* * *

Həmin eylülün 29-dan mühəndis Əbdülqədir bəy Əfəndiyev və Şahbaz bəy Rüstəmbəyovu Xalq Təsərrüfatı Şurası cənbində Ticarət, Səna'ət və Ərzaq Vəzarəti tərəfindən baş məmur təyin edirəm.

* * *

29 eylül 1918. Xüsusi məmur Əliyevi vəzifəsindən xaric edib, göstərdiyi xidmətinə görə izhari-təşəkkürümü ona elan edirəm.

*Ticarət, Səna'ət və Ərzaq naziri: Aşurov.*

**Hökumət Kontrolundan [Müfəttişindən]**

1 – 1918-ci ilin ağustosun birindən hökumət kontrolu cənbində Adam Bekiroviç Muxarski xüsusi məmur təyin olunur.

2 – Tiflis Kontrol Palatasının sabiq məmuru Sofya Aleksandrovna Yanoviç-Çainskaya Hökumət Kontrolu dəftərxanasında ildə 3600 rublə məvacib olmaq üzrə avqustun 20-dən he-sabdar təyin olunur.

3 – Eylülün [sentyabrın] 8-dən polkovnik Ənvər bəy Troyanovski Hökumət Kontrolu dəftərxanasında ildə 7800 rublə məvacib olmaq üzrə katib təyin olunur.

4 – Ehtiyat zabiti Qleb Nikolayeviç Avanov eylülün 22-dən 3600 rublə məvacib olmaq üzrə Hökumət dəftərxanasında yazıçı təyin olunur.

5 – Quberniya katibi Sitiyan Yakovleviç Adamoviç eylülün 23-dən ildə 6600 manat məvacib olmaq şərtilə Hökumət Kontrolu dəftərxanasında kargüzar təyin edilir.

*Hökumət Kontrolu əvəzinə:*
*Maliyyə naziri Əmircanov.*

**Maarif Nəzarətindən**

3 – 5 ağustos 1918. Dağıstan nahiyə xalq məktəblərinin naziri [müfəttişi] Nəsib ağa Qiyasbəyov avqustun birindən Gəncə quberniyası Qazax uyezdinə yenə həman qulluğa təyin olunur.

4 – 21 ağustosdan məktəblərin milliləşməsi münasibəti ilə aşağıda yazılan nazirlər [müfəttişlər] vəzifə və mənsəblərindən xaric olunurlar: Gəncə uyezdi əvvəlinci məhəllənin naziri Vasili Aleksandroviç Yemelyanov, Şuşa və Cavanşir uyezdlərinin 3-cü məhəlləsinin naziri İvan Yakovleviç İvanov, Zəngəzur və Qaryagin uyezdlərinin 4-cü məhəlləsinin naziri Mitrofan İvanoviç Atamanaki.

5 – 24 ağustos 1918. Nuxu ali-ibtidai məktəbinin naziri Ələkbər Mahmudov öz vəzifəsində təsdiq olunur.

6 – 25 ağustos 1918. Şuşa ali-ibtidai məktəbinin müəllimi Haşım bəy Nərimanbəyov Gəncə quberniyası Şuşa uyezdi xalq məktəblərinin naziri təyin olunur.

7 – 25 ağustos 1918. Sentyabrın 20-də Əhməd Əfəndi Muxtar oğlu Bayramov Nuxu zükur [oğlanlar] gimnaziyasının türk müəllimi təyin olunur.

8 – 26 ağustos 1918. Avqustun birindən Qriqori Andreyeviç Çerqeştov Məzahib Nəzarətində [Dini Etiqad Nazirliyi] rus və ümum xristiyan kilsə işlərindən ötrü katib təyin olunur.

9 – 26 ağustos 1918. Mixail Vasilyeviç Kondratyev Maarif Vəzarəti dəftərxanasına müdiri-vəzarətin kargüzarı, Mirzə Məhəmməd Axund oğlu katib və Gəncə quberniya Hərbiyyə İdarəsinin katibi Sergey İliç Yembayev buxqalter təyin olunurlar. Lidiya Viktorovna Şine, Serafima Zaxarovna Dobrotina və Mirzə Musa Mirzə Sadiq oğlu Mirzəzadə dəftərxana yazıçılığına təyin olunurlar. Bunlardan Kondratyev, Yembayev və Dobrotina avqustun birindən, Mirzə Məhəmməd Axundzadə avqustun 26-dan, Şine iyulun 20-dən və Mirzəzadə avqustun 15-dən təyin olunurlar.

10 – 27 ağustos 1918. Vasili Vasilyeviç Kondratyev Maarif Nəzarəti dəftərxanasında kargüzar müavini təyin olunur.

1131 ağustos 1918. Məktəblərin milliləşməsindən naşi Qazax ali-ibtidai məktəbinin naziri İvan Xunzadze vəzifəsindən ixrac olunur.

12 – 4 eylül 1918. Gəncə ali-ibtidai məktəbinin müəllimi Cavad bəy Cuvarlinski Gəncə uyezdi xalq məktəblərinin naziri təyin olunur.

13 – 4 eylül 1918. Maarif Vəzarəti dəftərxanasının müavini-kargüzarı Firidun bəy Muxtarov və dəftərxana yazıçısı Mirzə Musa Mirzəzadə eylülün birindən birinci kargüzar və ikinci qüyudat [qeydiyyat] məmuru təyin olunurlar.

14 – 4 eylül 1918. Bayram Niyazi [oğlu] Kiçikxanov Zaqatal ali-ibtidai məktəbinə nazir təyin olunur.

15 – 4 eylül 1918. Salahlı 2 şöbəli ərazi məktəbinin naziri Əhməd ağa Abdulla ağa oğlu Mustafayev Qazax ali-ibtidai məktəbinə nazir təyin olunur.

16 – 10 eylül 1918. Gəncə darülmüəlliminin [pedaqoji seminariyasının] bağlandığına görə, onun vəkili-xərci İşxanova qulluğundan ixrac olunur.

17 – 10 eylül 1918. Aşağıda yazılan zəvat [şəxslər] Gəncə darülmüəllimininin milliləşməsinə binaən eylülün 15-dən vəzifələrindən ixrac olunurlar:

1) Rus ilahi müəllimi keşiş Qolubov; 2) Erməni ilahi müəllimi Qorqyans; 3) Müəllimllər: Vyaxirev, Semyonov və Belova. Əl işi müəllimi Kostin, Pankeviç. Erməni dili müəllimi Korkotyan və darülmüəlliminin xüsusi naziri Andreyev.

18 – 10 eylül 1918. Gəncə Mixaylov sənət məktəbinin milliləşməsi münasibətilə aşağıda yazılan zəvat eylülün 15-dən vəzifələrindən ixrac olunurlar:

1) Rus dərsi-ilahi [dini etiqad dərsi] müəllimi keşiş Abesadze; 2) Erməni dərsi-ilahi müəllimi Tumanyans; 3) Müəllim Moskorenko; 4) Sənət məktəbinin cənbindəki [nəzdindəki] ibtidai məktəbinin müəllimləri: Popov-Perelyakov, Muravyov və Astvosaturov; 5) Texnik Markovski; 6) Yazıçı-hesabdar Voqod; 7) Əmlak naziri [müfəttişi] Zelenin.

19 – 11 eylül. Nuxu ali-ibtidai məktəbinin müəllimi Məhəmməd Əli Xələfzadə eylülün 30-dan vəzifəsində təsdiq olunur.

20 – 12 eylül. Vəzarət dəftərxanasının kargüzarı Firidun Muxtarov eylülün 14-dən 7 gün məzuniyyətinə buraxılır.

*Maarif naziri: N.Yusifbəyov.*

## TÜRK RUHU

Türk ruhu inqilaba yabançımıdır? Türk oğlu! Sənin tarixinin hər bir səhifəsi avazi-inqilabı [inqilab avazını] səm'imizdə [qulağımızda] inikas [əks] etdirmirmi? Sənin müzəffər və fəal qardaşlarının bütün həyatını, tarixini seyr et; sultan və qazilərini təsəvvür et, Qafqaziyanın bugünkü tarixi günlərini unutma. Bütün islam aləmində qopacaq inqilab sənin iqdamatını [təşəbbüs göstərməyini] bəkləyir. Qafqaziyanın vasi [geniş] və azadə köksünü qərb türkləri üdvan [təcavüz] dırnaqlarından xilas etdi. Bu gün də növbət sən Qafqaziyalı türkünə gəldi. Şimdi bir taqım saxta hökumət təşkil edən siyasiyyunun [siyasilərin] zənciri-əsarətindən təxlis [xi-las olmaq] üçün digər islam qardaşlarımızı Osmanlı türkləri ilə bərabər Qafqaziya türklərinə qoşmalıdır.

Türkistan, İran habelə... Bir çox qardaşlarımız, qan-yaşlar tökərək bizə müntəzir deyilmidir? Bunlara tərəf varmaq üçün həpimiz bir qəlb, bir iman ilə silaha sarılalım! Türk ruhu bu gün yüksəlsin, türk ərliyi bütün cahana varsın görünsün, fürsət var ikən müqəddəratımızı həll etməklə, türk tarixində müşə'şə' [parlaq] səhifə açılsın! Sönməz həyatımızda bir inqilab qopmasıyla yaşayışımız dəyişsin.

Türk oğlu! Bugünkü gün sənindir! Artıq sənin fəna günlərin bitmişdir. Sən yenə tarixini, şərəfini iadə eylərsən [qaytararsan]! Əzəl gündən əsgər idin, əsgərliklə yüksəldin! Əsgər ruhu sənin ruhun, türk oğlusan, bil bunu!

*M. Hənəfi*

## HEYƏTİ-VÜKƏLANIN TƏDİLATI [NAZİRLƏR KABİNETİNDƏ DƏYİŞİKLİK]

Mövsuq [etibarlı] mənbədən aldığımız məlumata nəzərən, Heyəti-Vükəlanın bəziləri tədilata uğramış, bu cümlədən sabiq Xariciyyə nazirinin yerinə Əlimərdan bəy Topçubaşov və sabiq Xariciyyə naziri Məhəmmədhəsən bəy Hacınski Maliyyə naziri, sabiq Daxiliyyə naziri Behbud bəy Cavanşir Ticarət və Səna'ət [sənaye] naziri olmuşlardır.

## RUS MİLLİ KOMİTƏSİNDƏ

Müvəqqəti Rus Milli Komitəsi Azərbaycan Hökumətindən xahiş etmişdir ki, pasportları itmiş ruslara pasport əvəzində Komitə tərəfindən şəhadətnamə verilməsinə Hökumət icazə versin. Azərbaycan Hökuməti Rus Milli Komitəsinin bu təklifini qəbul edib, veriləcək şəhadətnamələrin məsuliyyəti Komitənin öhdəsinə olacağını bildirmişdir.

Müvəqqəti Rus Milli Komitəsi Azərbaycan Hökumətinə bu məzmunda ərizə vermişdir. Sentyabrın 14 və 15-də, yəni Türk Ordusu Bakı şəhərini iş-ğal etdiyi zamanda bir çox rus ailələri şəhərdən çıxıb xilas olmaq məqsədi ilə iskələlərdə paraxodlara minmək istəyirdilər. İskələlərdə hökmfərma olan [hökm sürən] izdiham və qanunsuzluqdan naşi bir çox çocuqlar anasız, atalar ailəsiz bu paraxodlarda qeyri şəhərlərə (məsələn Petrovska) getmişlər. İndi bu ailələr iki hissəyə bölünüb biri-birilərindən xəbərləri yoxdur. Binaileyh [ona görə] Rus Milli Komitəsi rica edir ki, ailələri pozulmuş rus əhalisinə Bakıdan çıxmağa Azərbaycan Hökuməti icazə versin, ta ki, bunlar da özgə şəhərlərdə öz ailə üzvlərini arayıb tapsınlar. Bu barədə Petrovsk şəhərindəki Biçeraxovdan da razılıq alınacaqdır.

## HADİSAT

**Casusluq işarələri**

Azərbaycan Polis müfəttişi-ümumisi xəbər almış ki, dəryaya baxan bir caddədən dəryada durmuş hərbi paraxodlar ilə gecələr bəzi işarətlərlə casusluq yapılır. Şu xəbəri alınca 2-ci polis inzibat [asayiş] zabiti həman caddəyə nazirlər [nəzarətçilər] təyin edərək kəşf edir ki, bir evdən 4 gecə, nisfül-leyldən [gecə yarısından] sonra bir qaç saat qırmızı işıqlı fənərlərlə müxabərat [xəbərləşmə] icra edilir. Məlum olur ki, Aşağı Çəmbərəkənd caddəsində [prospektində] 4 nömrəli bir evdən Bakı sahilində durmuş hərbi paraxodlarla rəngarəng işıqlar ilə müxabəratda bulunurlar.

Dün gecə məzkur [adı çəkilən] ev polis nəfəratı [nəfərləri] tərəfindən əhatə edilib, təhərriyat [araşdırma] icra edilir. Nəticədə bir qaç [şəxs] həbs edilirsə də, təftişat [yoxlamalar] nəticəsində ancaq P.A.Qorşkov ilə İ.M.Baranov namında iki nəfər şu cinayətə mürtəkib olanlar [əl atanlar] məhbusən təhtiməs'uliyətə [həbs edilərək məsuliyyət altına] alınmışlar.

Şu xanədə təhərriyat icra edildiyi zaman, ikinci bir məhəldən də, baxüsus "Qafqaz və Merkuri" körpüsündən həmçinin qırmızı fənərlər ilə gizli müxabərat bulunması kəşf edilir. Bu xüsusda da ciddi tədabiri-lazimə ittixaz edilmişdir [lazımi tədbirlər alınmışdır].

**Saxta pul fabrikasının kəşfi**

Bir qaç gün irəli Azərbaycan Polis müfəttişi-ümumisi Bəhaəddin bəy cənablarına xəbər verirlər ki, Bakıda külli miqdarda saxta kağız pul fabrikaları mövcuddur. Bəy həzrətləri ciddi tədabir ittixaz edib də [tədbirlər alaraq], tezliklə nəticəsini də almışdır. Bayıl tramvayı durduğu məhəldə bir xanədə altı kişi saxta makinalarda pul kəsdikləri halda kəşf edilmişdir. Makinaxanada iki litoqraf daşları tapılmışdır ki, bu daşlarda 40 manatlıq Kerenski pulları şəkilləri dərc edilmişdir. Makinaxanada hazırlanmış və kəsilmiş üç milyon manat miqdarı pul dəxi kəşf və zəbt edilibdir. Anlaşılmış ki, bu cinayətə mürtəkib olan [əl atan] heyət qırx nəfərə kimi kişidən ibarətdir. Bu canilərin arasında Bakı əyanından dəxi bir neçə kişi varlığı isbat edilmişdir. Litoqraf daşları və hazır pullar Bəhaəddin əfəndinin kabinəsindədir.

Həmçinin kəşf edilmiş ki, Bələdiyyə tərəfindən nəşr edilmiş 25 rubləlik bon pullarının dəxi fabrikası mövcuddur.

Bu kişilər arasında İlya Rezin namında bir şəxs dəxi həbs edilmişdir. Bu şəxsin evindən bir çarpayı dəxi tapılmış ki, onun içində yüz min rublələrlə Nikolay pulları və böyük brilyant qaşlı üzüklər kəşf edilmişdir.

Ciddi təhqiqat davam etmədədir.

## TÜRK ORDUSUNA

Şanlı Türk Ordusu, cavan ərlər,
Hər bir işdə əcib mahirlər.
Fəthiniz qıldı bizləri dilşad,
Cümlə islama sizsiniz imdad.
Sizi görcək şu firqeyi-üdvan
Bax, nasıl oldu dəhrdə nalan.
İştə aciz qalıbdı zarü zəbun,
İtirib əqlini misali-cünun,
Diliyor şimdi gör necə imdad,
Bizlərə xunriz olan cəllad.
Eyliyorlarmı mazini bir yad?
Yox idi bizlərə edən imdad.
Həpimiz pək əlilü nalandı,
Malımız zalimanə talandı.
Həpimiz qalmış idi sərgərdan,
Edərək dildə naləvü əfqan.
Etdilər bi-hesab qarətlər,
Başaçıq qaldı cümlə övrətlər.
Çoxları qaldı bi-sərü saman,
Çulları mənzil etdilər o zaman.
Onları tutdu çünki nanü nəmək,
Gəldi islama iştə güclü kömək.
İntiqam aldı iştə şiranə,
Düşməni məhv edib diliranə.
Cəngdə fəthə oldunuz talib,
Düşmənə gəldiniz o dəm qalib.
Sizə yar oldu Qadiri-qəhhar,
Oldu həm sizlərə, əvət, sərkar.
Həmlə etdiz misali-şirü pələng,
Atəş açdız, atıldı topü tüfəng.
Pulemyot əldə, tiğü tirü xədəng,
Zabitani-kiram edib ahəng:
Şanlı əsgər, hücum edib yallah,
Arş irəli, ya Allah, bismillah...
Cümlə əsgər hücum edib ol dəm,
Qırdılar düşməni qədəm-bə-qədəm.
Ta ki, oldu ədu pərakəndə,
Qalmadı tabı, qüdrəti təndə.
Olmadı çün müqavimət asan,
Aldı anlar vaporlarında məkan.
Səmti-dəryaya qaçdılar o zaman,
Qurtarıb tapdılar orada aman.
Qandılar türkün ol zaman gücünü,
Gördülər çünki süngülər ucunu.
Yaşasın cümlə türkün övladı,
Yaşasın hər nə vardır əfradı!
Yaşa, ey şanlı zabitani-kiram,
Biliniz, sizlədir bütün islam.
Fəthiniz etdi bizləri ehya,
Olmarız başqa arzu-cuya.
Sizə layiqdi can verək qurban,
Bizlərə verdiniz, əvət, yeni can.
Şaddır iştə cümlə pirü cavan,
Pək fərəhnak, cümləmiz xəndan.
Sizi alqışlıyor bütün islam,
Şakir etsin bununla xətmi-kəlam:
Yaşasın, şanlı ordu var olsun,
Düşməni hər zamanda xar olsun!

*İbrahim*

## BAKI XƏBƏRLƏRİ

Cümə günü oktyabrın 4-də Ticarət və Sənaye İttifaqının müavini-sədri [sədrinin müavini] Yusif Əhmədov Ticarət və Sənaət [Sənaye] naziri Ağa Aşurov ilə görüşüb, bu ittifaqın fəaliyyətə başlaması xüsusunda müsahibədə bulunmuşdur.

Nazir öz tərəfindən mümkün olduğu qədər bu ittifaqa müavinət [yardım] edib, gələcəkdə bu ittifaqın vasitəsilə bizim ticarət və sənayenin zəruriyyatı [ehtiyacları] ilə aşina olmasını vəd etmişdir.

Bundan əlavə, mal əvəz etmək, qeyri hökumətlərlə ticarətə başlamaq və qeyri bu kimi məsələlər dəxi danışılmışdır. Vəzarət [nazirlik] tərəfindən ittifaqın fəaliyyətə başlamasına icazə verilmişdir.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 7 oktyabr (Bazar ertəsi günü) tarixli VIII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

**Maliyyə Nəzarətindən**

5 oktyabr 1918.

Bu gündən etibarən Azərbaycan Hökuməti qərardadıyla Azərbaycan dairəsində işlənən paraların (Nikolay, Kerenski, Bakı və Zaqafqaziya bonaları) ümumən müsavi [bərabər] fiat üzrə olacaqdır və buna müğayir [zidd] hərəkatda bulunanlar hökumət tərəfindən təcziyə [cəzalandırılacaq] və təqib ediləcəkdir.

**Yeni məcmuə**

Dün idarəmizə Bakıda yeni nəşrə başlayan "Şeypur" məcmuəsinin birinci sayı gəldi. Aləmi-mətbuata qədəm-nihad olan [qədəm basan] şu məcmuə türkcə bir məzhəkə məcmuəsi olub, müxtəlif məqalələri havidir [ehtiva edir].

Şu yeni rəfiqimizə müvəffəqiyyət diləriz.

**Klubun açılması**

Cümə günü oktyabrın 5-də Bakı klubu ...ya məxsus olan binasında klubun rəsmi-güşadı [açılış mərasimi] vaqe oldu. Bu bina "yoldaşlar" tərəfindən xaraba bir hala gətirilmişdisə də, yenə təzədən təmir olunmuşdur.

Bu axşam rəsmi-güşad münasibətilə dəvət olunmuş Türk Hərbiyyə Musiqisi tərəfindən çalınan üç dəfə türk mahnısı ayaq üstə olaraq camaat tərəfindən dinlənildi. Sonra saat 12-dək musiqi Avropa mahnıları çalırdı. Yerli türk sazəndələri dəxi orada bulunurdu.

Musiqi heyəti Bakı Ordusu komandanı Mürsəl Paşa tərəfindən pulsuz verilmişdir. Gecə saat ondan sonra dışarıda qalmaq əmrinin komandan tərəfindən elan olmadığına baxmayaraq çoxlu camaat toplaşmışdı. Burada Bakıya gəlmiş gürcü nümayəndələri və qadınlar və hərbi zəvat [şəxslər] hazır idi.

Hazirunun [iştirak edənlərin] üzlərində təbəssüm və behcət [sevinc] peyda idi. Həpsi bundan sonra əsarətdən xilas olub, yenə sabiq həyat ilə yaşayacaqlarına sevinirdilər.

Klub – ziyalı işçilərinin gündüz çəkdiyi zəhmət və məşəqqətdən sonra bir neçə saat istirahət keçirəcək mədəni bir məhəldir [yerdir]. Bundan naşi bu müəssisənin xaraba halından yenə keçmiş vəziyyətinə salan mütəşəbbislərə izhari-təşəkkür etməliyiz.

Burada təəssüf ediləcək şey varsa, o da yemək və məşrubatın [içkilərin] baha satıldığıdır. Adi klub yeməyinin qiyməti 20-25 manatdır. Buradakı bufetçi mənzil kirayəsi verməyib, hər hesabdan qulluqçulara 25 faiz verdiyi halda, yarım girvənkə miqdarında olan ətə 20-25 manat alması xeyli təəccübdür.

Klub müəssislərinin [təsisçilərinin] diqqətini buraya cəlb ediriz. Klub camaatın rahatlığı üçün olub, neçə nəfərin ciblərini doldurmaq üçün açılmamışdır.

**Türk Ocağı cəmiyyəti**

Türk millətini əxlaqi-məişət və irfanca yüksəltmək və Osmanlı türkləri ilə Azərbaycan türklərini biri-birinə qatışdırmaq üçün Bakıda bir Türk Ocağı cəmiyyəti açmaq məsələsi məhəlli [yerli] ziyalılarımız tərəfindən çoxdan bəri təhti-qərara alınmış idi.

Cəmiyyətin qətiyyən məqsədi siyasət ilə uğraşmaq olmadığından və nizamnaməsi dəxi 12 martda 1328 tarixində İstanbulda qurulmuş bir cəmiyyətin nizamnaməsi ilə eynən müvafiq olduğundan, şu cəmiyyətə Baş Komandanlıq tərəfindən icazə verilmişdir.

* * *

– Şəhər İdarəsinin Ərzaq şöbəsi bu şöbəyə un, buğda, kartof və qeyri ərzaq vermək istəyən zəvat [şəxslərdən] və müəssisələrdən xahiş edir ki, bu barədə ərizə yazıb şöbənin yurist konsuluna şəraitini məlum etməlidir. (Sabiq "Natsional" mehmanxanası, mənzil nömrə 7.)

* * *

– Şəhər İdarəsi qulluqçuların məzuniyyəti barəsində qət etmişdir ki, ağır xəstələrdən savayı kimsəyə məzuniyyət verilməsin.

## LƏNKƏRANDAN GƏLƏN PARAXOD

Lənkərandan beş yüzdən ziyadə çocuq, qadın və bir neçə nəfər kişi ilə "Ani" paraxodu Bakıya gəlmişdir. Bunlar həpsi avqustun 10-dək ərzaq üçün getmiş Bakı əhalisidir. Gəldikləri 7 günün 5-ni Nargin adasında dayanmağa məcbur olmuşlar. Minikləri qayət əzilmiş və ruhən incimiş bir surətdə kənara çıxmışlar.

Lənkərandan çıxdıqda onlara bir çox un və qeyri ərzaq vermişlər. Unun həpsini Nargin adası yanında həcz [müsadirə] etmişlər. İskələdə gətirdikləri ərzağı hökumət məmurları belə ala bilməyəcəklərini onlara dedikdə, miniklər pək məsrur [şad] olmuşlar.

Gələnlərin rəvayətinə görə, Nargin adasının dalında Astraxandan gəlmiş dörd paraxod və bir böyük barja durmuşdur. Bunlarda əksərən Bakı əhalisi, xüsusən fəhlələr vardır. Bunlar Bakının süqutunu eşidib, buraya qayıtmaq istəyirlər.

Astraxandan gələnlərin rəvayətinə görə, oradakı bolşeviklər bu miniklərin həpsini soyub, bir girvənkə belə un və çörək verməmişlərdir. Nargin adası yanında dayanan paraxodlarda acından gündə neçə adam ölüb, meyitləri dənizə tullanılır. Bu paraxodlardakıların ədədi beş minə qəribdir [yaxındır].

## SƏLAMƏTİ-ÜMUMİYYƏMİZ [İCTİMAİ TƏHLÜKƏSİZLİYİMİZ] TƏMİN EDİLƏCƏK!

Dava günü – dava; sülh günü – sülh, demişlər.

Bakının süqutu zamanı, hökumət məmurları öz vəzaifini [vəzifələrini] dəröhdə etmədikləri [öhdələrinə götürmədikləri] günlərdə şəhərin ixtilalından, əhalinin həyəcanından istifadə edib də bir çox başıpozuq əşqiya [quldurlar] və əşərranın [yaramazların] cinayət və əf'ali-şəni'ələri [alçaq hərəkətləri] övci-balaya [zirvəyə] çıxmış idi.

Evləri talan və bigünah əhalini cəbrən həbs edib para tələb etmək ittifaqları adi bir həvadis rəngini almış idi. Şu xırsız [oğru] və canilərin əf'ali-şəni'ələri get-gedə öylə bir zorlu qədəmlər ilə intişar tapırdı [yayılırdı] ki, insan doğrudan da Bakıda bir daha sələməti-ümuminin iadəsinə [qayıtmasına] ümidsizliyini bəyan edirdi. Baş Komandanlıq tərəfindən südur etmiş [verilmiş] əmrnamə müfadınca [əmrnamədə ifadə edildiyi kimi], gecələr saat 8-dən sonra dışarıya çıxmaq yasaq edildiyi üçün xırsızlıqlara, talançılığa bir dəfə intiha [son] verilən kimi göründü. Əşqiya bu minval cinayətlərdən məyus olub da, bu axırlarda firqələr təşkil edərək polis və yaxud əsgərlər libaslarını taxaraq evlərə girib, oradan erməniləri həbs etməyə başlamışlar. Filan və ya filan adamı polis müfəttişi tələb edir deyə, onları odasından dışarıya çıxarıb da paralarını və sair əşyasını qarət etmək kimi cinayətlərə şürü etmiş idilər [başlamışdılar].

Bir qaç böylə hadisələr vüqu bulduqca, Azərbaycan Polis müfəttişi-ümumisi Bəhaəddin bəy həzrətləri bu kimi əşqiyanın da əleyhində mübarizəyə girişdi. Xüsusi elanlar ilə hər dəfə böylə ittifaqlarda telefon ilə müfəttiş cənablarına şəxsən əxbar edilməyi əhaliyə tövsiyə etdi.

Bərəkət versin ki, Müfəttiş həzrətlərinin tövsiyəsi özünə yaxışar [yaraşan] əcələ ilə [tezliklə] də nətayicinafiə[si]ni [faydalı nəticələrini] göstərdi də bu kimi cinayətlərə də intiha bulundu.

Bu keçən gün iki nəfər sənətkar ermənilər Çornıqoroddan telefonla Müfəttiş həzrətlərinə xəbər verirlər ki, dün 4 nəfər əsgər və polis əlbisələri taxmış həriflər Nobel zavodu həyatinə gəlib 8 nəfər erməniləri məhbusən [həbs edərək] aparmışlar. Bunları apardıqları zaman "Sizi Baş Komandanlıq tələb edir" demişlər. Mədənlər dairəsindən bunları kənara çıxarınca, qarət etmişlər. Bəhaəddin bəy həzrətləri şu xəbəri alınca, avtomobil ilə Çornıqoroda gedər. Şaqiləri [quldurları] arayıb da təftişə girişər. Şu məhəldəki əsgərlər qışlasına [kazarmasına] və polis dairələrinə varıb, bütün əsgər və məmurları bunlara nişan verir. Lakin ermənilər bunların arasında caniləri görməzlər. Polis məmuriyyətindən övdətləri [qayıtdıqları] zaman bir caddədə bir nəfər könüllü əsgər libasında kişini ermənilər görüncə, "Ay aman, bizi qarət edənlərin biri budur!" deyə fəryad edərlər. Əsgər dərhal həbs edilir. 8 nəfər ermənilərdən 6 kişi öz evlərinə övdət etmişlərsə də, 2-si gəlməmişdir. Məlum olmuş ki, bu ikisini qolları bağlı nərəyə isə aparmışlar. Məhbus əsgər istintaq zamanı bu cinayətlərə iştirak etmədiyini ciddiyyən isbata çalışır idi. Lakin Müfəttiş həzrətləri özünəməxsus ustadlıq ilə istintaqa girişib də bir az zamandan sonra "əsgər" şu cinayətin keyfiyyətini tamamilə Bəhaəddin bəyə söyləməklə, özünün iştirakını etiraf ilə cinayət rəfiqlərini dəxi göstərər. Məlum oldu ki, könüllü əsgər Şahsevənlər dəstəsindən birisi olub, başqa üç nəfərlər də Çornıqorodda yaşayan iranlılardandırlar. Şübhəsiz ki, sair canilərin də tutulmasına və həpsinin əzabi-şədidə [şiddətli əzaba] giriftar olmasına tədabiri-lazimə ittixaz edilmişdir [lazımi tədbirlər görülmüşdür].

İştə, şu vəq'əni [hadisəni] təhrirdən [yazmaqdan] məqsəd budur ki, əhali bir dəfə əmin olsun ki, bizim hökuməti-cəliləmiz indində [nəzdində] əhali kim və hangi millətdən olursa olsun, müsaviyyülhüquqdur [bərabər hüquqludur]. Müsəlmanmı, ermənimi, gürcümü və yaxud başqa bir millətmi, hər kim olursa olsun, onun malı, canı hüviyyəti-insaniyyə [şəxsiyyət] və heysiyyəti-millisi hökuməti-cəliləmiz [uca hökumətimiz] tərəfindən ciddiyyən mühafizə olunmaqdadır.

Bizim hökumət idarələrimizdə, hakimlərimizin üsuli-idarələrində mən müsəlman – sən erməni, mən yaxşı – sən fəna, mən əziz – sən mənfur, mən məsud – sən məzlum təfhimləri [anlayışları] yoxdur. Cani, əşqiya, xırsız kim olursa olsun, cəzalanacaqdır.

Sələməti-ümumiyyəmizi pozan, asudəliyimizə xələl qatan kim olursa olsun, cəzayi-şədidəyə [şiddətli cəzaya] düçar olacaqdır.

İslam və islamiyyət qanuni-müqəddəsi məfadınca [müqəddəs qanununa uyğun] təşəkkül etmiş bizim hökumətimiz ögey-doğmalıq üsulunu bilməyir.

Bununla belə, cümlə başıpozuq, əşqiya və xırsızlara məlum edilsin ki, onların o məsud zamanları bitdi; xoşbəxt və sərəfrazlıq ilə [başlarını dik tutaraq] keyfəmayəşa sürdükləri [kefləri istədiyi kimi yaşadıqları] günləri dəxi görəmməyəcəklər. Hər bir dəni [alçaq] və ədəbsiz, bir revolver ilə tamam əhalinin həyatını qana döndərən, istirahətini haram edən vaxtlar ötüşdü.

Nikolay çinovnikləri, Nikolay qanunları, bolşevik hərcmərci, daşnaksaqan "millətpərəstliyi" və yaxud menşevik "vətənpərəstliyi" zamanları deyil. Daha qanun, hökumət, nizam və insancasına həyat günləri başlanmışdır. Ədl [ədalət], insaf və asayişi-ümumi növbəsi gəlmişdir.

*Məhəmməd Sadiq*

## TEATRO VƏ MUSİQİ
## "O olmasın, bu olsun"

Keçən axşama nisbətən bu gecə teatroda o görülməkdə olan gurultu az idi. Bu dəfə teatro adi bir şərait içində keçdi. Toplanmış tamaşaçıların nədənsə qafasından əski havalar çıxmamış, həyatımız böyük bir təbəddülata [dəyişikliyə] uğramış ikən, onlar yenə əski qəbahətlərində davam edirdilər. Pərdə açılmadan səbrsizliklə əl-ayaq vurmaq, aktyor rollarını tamaşaçılar da kəndi yerlərindən ifa etməkdən bir an olsa çəkinməyirdilər.

Bundan məlum olurdu ki, möhtərəm tamaşaçılar aktyorun vəzaifinə [vəzifələrinə], onun oynadığı vaxtda dimağında [beynində] olan cərəyanlara və ələlümum [ümumiyyətlə] bir aktyor, bir mahir sənətkar olduğunu nəzərə almayıb, teatrodan da kəndisi üçün bir təəssürat almaq fikrində deyildi.

Səhnə açıldıqda xor oxuyanların mərkəzində durmuş Yusifxanov tam bir Qarabağ bəyi tipi olduğundan calibi-diqqət olmuşdu [diqqəti cəlb edirdi]. Bıyıqlarının sallandığı, özünün bir qədər məyusanə vəziyyəti həqiqətən bunun yoxsul düşmüş bir bəy olduğuna dəlalət edir. Bir tərəfdən səhnənin bir az namüvafiq olması, digər tərəfdən xorun sol cinahı qüvvəsiz və yeni aktyorlardan olduğu təsnifin ahəngini xələldar edirdi.

Birinci pərdədən başlayaraq sonuna qədər Rüstəm rolunu gözətləndiyi kimi Yusifxanov aparmağa müvəffəq oldu. Onun qızı Gülnaz rolunu ifa edən Xanım Məğfurənin "Al dədə qurbanın olum" cavablarında səsi bir az tutqun kimi görünürdü. Sonra isə kəndisini idarəyə başlamışdı.

Onun qulluqçusu Sənəm rolundakı Xanım Münəvvər olduqca qurnaz və təcrübəli bir xidmətçi idi. Səhnə açılmadan on beş dəqiqə irəli xəstəlikdən dad çəkən artistlərimizdən birisi gərək səhnəyə çıxdıqda, gərək ziyafət məclisində tamamilə təğəyyür tapmış [dəyişilmiş] bir mahir kimi rolunu aparırdı. Bir də inteligent rolunu ifa edirdi. Bunun bir kənara çəkilib hərəkatında nə qədər təbii idisə, öylə də Ələkbər Hüseynzadə digərlərin ağuşunda ikən atılıb ayaqlarını oynatması əhval və mövqeyinə müğayir [zidd] idi. Zatən bu qədər müqtədir aktyorlar[ın] böylə yersiz hərəkətlər, şarj [gülünclük] və sözlərindəki mübaliğə onlar[ın] kəndisinə böyük ziyan verirdi. İstər Məşhədi İbad, istər hammal rolunda Anaplinski böylə izafələrdən [artırmalardan] kəndilərini alarsa, çox gözəl olar. Qəzetəçi Anatollu və millətpərəst – Mirzə Muxtar ifa etdikləri rollarında o qədər də fəna deyildi.

Mühim rollardan olan student rolunu oynayan gənc aktyorda musiqi hissi qüvvətli olsaydı və lazımi yerdə məharəti-müqəllidanəsi [təqlid məha-rəti] və iması bir çox gözlərə çarpmayırdı. Ələlümum [ümumiyyətlə] teatro izdihamlı idi və axıra kimi xoş keçdi. İnşallah bundan sonra gələcək tamaşaçılarımız da və aktyorlarımız da kəndinə diqqət edəcəklərdir.

*M. H.*

## QAFQAZ XƏBƏRLƏRİ

**Qafqaziyadan ötrü Almaniya malı**

Tiflisdə nəşr edilən "Kavkazişe post" adlı alman qəzetəsində Qafqaziyadan ötrü alman malı barəsində doktor Vestrinqaqin böylə yazır:

"Ümum Qafqaziyada olduğu kimi, Tiflisin də həyatı gün-gündən bahalaşır. Bu bahalıqdan ən artıq fəhlələr və əhalinin fəqir qismi mütəəssir olurlar. Çox vaxt əhaliyə lazım olan əşyanı bazardan ələ gətirmək mümkün olmur. Çünki dört ildən ziyadədir ki, xaricdən Qafqaziyaya heç bir şey gəlməyib, daxildə olan mallar da qurtarmışdır. Ələ gətirməyi qeyri-mümkün olan əşyanın adlarını saymaq artıqdır. Çünki bunların ən lüzumlusu dəri, çəngəl, bıçaq, boşqab, çəkic, iynə və qeyriləri olduğu hamıya məlumdur. Bundan başqa elektrik ləvazimatı, ufaq makinalar, xüsusən ziraət, sənə'ət [sənaye] və bu kimi makinalar heç yoxdur.

Əcəba! Bu malları biz haradan almalıyız? Almaniyadan savayı heç bir ticarət və sənayecə qüvvəli olan məmləkət bu malları məmləkətindən xaricə buraxmayacaq, ancaq Almaniyanın ticarət və sənayesi keçmişdəki kimi yenə parlaq bir surətdə baqidir [qalmışdır]. Əlbəttə bu malları Almaniya dövləti Qafqaziya cümhuriyyətlərinə kamali-məmnuniyyətlə verib, əvəzində öz fabrika və zavodları üçün xammal tələb edəcəkdir. Bundan ötrü hər bir erməni, gürcü və müsəlman gərək öz cümhuriyyətləri ilə Almaniya arasında bir növ mal dəyişməsinin tezliklə başa gəlməsinə çalışsın. İmdilikdə Tiflisdə büro təşkil olunub, tezliklə Almaniyadan Qafqaziyaya mal gəlməsinə səy edəcəkdir.

Amma alman fabrikaçıları imdiyədək inqilabda yaşayan məmləkətlərə göndərdikləri malların pulunu kim verəcəyini bilmirlər. Bu mümaniəti [maneəni] bəlkə Qafqaziya-Alman Ticarət Bankası rəf edə [aradan qaldıra] bilsin. Fövqdə [yuxarıda] zikr olan [qeyd edilən] büro da banka ilə bərabər işləyəcəkdir. İştə bu məsul ticarət bankası olmaz isə Almaniya fabrikaçıları pullarının batması qorxusundan Qafqaziyaya mal göndərməyəcəklər.

**PETROVSKDA**

Bakıya gətirilmiş, Petrovskda nəşr olunan rəsmi "Əxbar"da Bakıdan qaçanlar barəsində böylə yazır:

Eylülün (sentyabrın) 26-da Ənzəlidən cüzi miniklər ilə "Kornilov" paraxodu Petrovska gəldi. Gələnlər xəbər verirlər ki, İngiltərənin ştabı və Bakıda dava edən hissələrin ştabları Ənzəlidə bulunurlar. Bakıdakı İngiltərə ordusunun komandanı Denstervil və onun ştabı dəyişmişdir. İngilislər zabitanının [zabitlərinin] rəvayətinə görə, onlar bu il davanın intihasını [qurtarmasını] gözləyirlər.

Qaçqınları köçürən heyətin Ənzəliyə bağladığı ümid boşa çıxmışdır.

İngilislər qaçqınları sahilə çıxarmağa razı olmurlar. Bargaha [limana] gələn paraxodlar həyəcanlı işarələr verirlərsə də, yenə imdad olmur. Paraxodlar tez bir zamanda bargahdan çıxmazlar isə top atəşinə tutulacağı ilə təhdid edildikdən, geri qayıtmağa məcbur etmişlər. Buna səbəb Ənzəlidə ərzaq yoxluğu səbəb olacaqdır. Hələlik dört paraxod qayıtmışdır. Az zamandan sonra qaçqınların yenidən Ənzəliyə göndərilməsi gözlənilir.

Eylülün (sentyabrın) 28-də Petrovsk şəhərinə yenə dört paraxod qayıtmışdır. Bunlar "Aşot Yerqat", "Feodosiya", "Meridian" və "Yuq" paraxodlarıdır. Yenə neçə paraxodun qayıdacağı gözlənilir.

Yolda "Aşot Yerqat" Ənzəliyə qaçqın aparan "Rus" paraxoduna Ənzəlidə qaçqınları qəbul etməyəcəklərini demişsə də, o yenə Ənzəliyə getmişdir. Bu paraxod da bu günlər qayıtmağa məcbur olacaqdır.

"Aşot Yerqat" eylülün 22-də Petrovskdan çıxıb, 24-də gəlmişdirsə də, bargahdan heç kimsə qarşısına çıxmamış. Sabahı günü qayıqda neçə nəfər əmrnamə gətirib "Aşot Yerqat"ın kapitanına verib. Bundan sonra Ənzəli də qaçqınları qəbul etmədiyindən naşi paraxodun yenidən Petrovska qayıtmasını tələb etmişlər. Yenə o gün ikinci qayıqda bir ingilis, mütərcimiylə bərabər paraxoda gəlir. Onun dediyinə görə, paraxod Petrovska getmək üçün ərzaq alıb tez bir zamanda Ənzəlidən çıxmalıdır. Sonra 700 minik üçün balqabaq, 12 qoyun, çay, qənd, səbzə və çörək gətirmişlərdir.

Paraxod Ənzəlidən çıxmaq istədik-də, Erməni Milli Komitəsinin nümayəndəsi Gülxandyan gəlib müvəqqəti olaraq qaçqınların Ənzəlidə qalması barəsində Erməni Milli Komitəsinin İngiltərə ştabıyla danışığa başladığından ötrü, paraxodun sabahadək gözətləməsini rica edir.

Paraxod Erməni Milli Komitəsindən cavab gözlədiyi halda, İngiltərə ştabından əmr gəlir ki, hərgah 20 dəqiqəyə kimi paraxod Ənzəli bargahından çıxmazsa, top atəşinə tutulacaqdır.

Paraxod bu əmrə tabe olub Petrovska qayıtmışdır.

Qaçqınları köçürən heyətin verdiyi məlumata görə, eylülün 30-dək Bakıdan Petrovsk şəhərinə qoşun əfradından [əsgərlərdən] savay 20 min nəfər qaçqın gəlmişdir. Bunlardan 11 min Ənzəliyə və Krasnovodsk şəhərlərinə köçürülmüşlər. Yerdə qalanlardan 8 min nəfəri evlərdə, şəhər bağında və bulvarda yerləşmişlərdir. 20 nəfər yetim çocuqları darüleytama [yetimxanaya] verib, onlara tərbiyə vermək üçün 2000 manat təxsis edilmişdir [ayrılmışdır].

Eylülün 29-da üç yüz nəfər qaçqın ilə Petrovska bir barja gəlmişdir. Bu barja iki həftə dənizdə qalıbdır. Burada 20 nəfərə kimi susuzluqdan ölmüşlərdir.

Bu axır vaxtlarda Bakıdan Petrovska bir çox qaçqın gəldiyindən naşi, burada su azlığı müşahidə olunmaqdadır. Şəhər su çeşmə[ləri] ətrafında camaat böyük növbələrlə dururlar.

## XARİCİ XƏBƏRLƏR

**İngilis ticarəti-bəhriyyəsi [dəniz ticarəti] pək fəna**

İngiltərə Hökuməti ingilis ticarəti-bəhriyyəsinin vəziyyəti-hazırasını [hazırkı vəziyyətini] tədqiq üçün bir komisyon təşkil eyləmişdi. Komisyonun bu babda tənzim eylədiyi rapor şimdi "Bord of treyd cournal" qəzetəsində nəşr edilmişdir. Raporun mündəricatı fövqəladə baisi-həyəcan olmuşdur.

Raporda ingilis ticarəti-bəhriyyəsinin təhtəlbəhr [sualtı] müharibəsindən dolayı zayiati-vəximəyə [dəhşətli itkilərə] düçar olduğu açıqdan-açığa etiraf edilmiş və bu zayiatın İngiltərənin ə'sabı-həyatiyyəsini [həyat damarlarını] təhdid eylədiyi bəyan olunmuşdur.

Komisyon vüqu bulan zayiati-əzimədən [böyük itkilərdən] dolayı bəyani-təəssüf etmiş və İngiltərənin təfəvvüqi-bəhriyyəsini [dənizlərdəki üstünlüyünü] mühafizə üçün tədabiri-lazimə ittixaz edilməsini [lazımi tədbirlərin görülməsini] tələb eyləmişdir.

Raporun bəyanına nəzərən, ingilis əshabi-səfaini [gəmi sahibləri] əqdi-sülhdən [sülh bağlandıqdan] sonra Düvəli-Mərkəziyyənin [Mərkəzi Dövlətlərin] əlindəki ümum səfaini-ticariyyənin [ticarət gəmilərinin] və hətta bitərəf limanlarda bulunanlarının dəxi qismən təzminati-hərbiyyə [müharibə təzminatı] olaraq zəbt edilməsini tələb etməkdədirlər. İştə, ingilis bəhriyyə imperialistlərinin ən mütənəffizləri [nüfuzluları] alman ticarəti-bəhriyyəsinin [dəniz ticarətinin] aqibətini bu surətlə təyin etmək təsəvvüründə bulunurlar. Fəqət şimdiyə qədər almanlar təhtəlbəhr müharibəsindəki müvəffəqiyyətləri ilə ingilis imperialistlərinin təsəvvüratının feilə çıxmasına mane olmuşlardır.

**İngiltərə və Japoniya Çində uyuşdular**

Japoniya ilə Çin arasında səneyi-haliyənin [cari ilin] 26 mayısında bir müahideyi-ittifaqiyyə əqd edildiyinə [müttəfiqlik sazişi bağlandığına] dair olan xəbər vürud eylədiyi [gəlib çatdığı] za-man, Japoniyanın Çinə tətbiq etməkdə olduğu hüluli-müslihanənin [sülhpərvər yaxınlaşmanın] bir xütvə [addım] daha tərəqqisinə dəlalət edən bu xəbərdən ziyadə Londra, Vaşinqtonda bu müahidənin mətni məlum olmadığına dair eyni zamanda vürud edən digər bir xəbər baisi-heyrət olmuş idi. Daha o zaman bu xəbərin heç olmazsa İngiltərəyə təəllüq edən [aid olan] qisminin doğru olmadığına ehtimal verilmiş və hətta Japoniyanın İngiltərəyə bəzi müsaidati-iqtisadiyyə [iqtisadi yardımlar] göstərərək müahideyi-məzkurəyə [adı çəkilən sazişə] müvafiqətini istehsal eylədiyi [razılığını əldə eylədiyi] zənn edilmiş idi.

Şimdi "Kölnişe zeytunq"un istixbar edib [xəbər verib] yazdığı vəchlə [kimi], məzkur zənlər, İngiltərə ilə Japoniya arasında yekdigərinə zidd bulunan Çindəki mənfəətlərini 25 sənə müddətlə təmin edərək, bu müqaviləni əqd etdiklərinə dair intişar edən [ya-yılan] şayiat [şayiələr] ilə təəyyüd etməkdədir [güclənməkdədir]. Bu müqavilənin qayəsi Çin Hökumətini Japoni-yanın haqqı-inhisarı altında və fəqət İngiltərənin mənafeyi-xüsusiyyəsinə riayət edilmək şərtilə əsri [müasir] bir ticarət məmləkəti halına ifrağ etməkdir [formalaşdırmaqdır]. Çinin ümuri-maliyyəsi [maliyyə işləri] Japoniya və İngiltərənin kontrolu altına alınacaq və buna müqabil Çin Hökuməti məmləkətin inkişafati-maliyyəsini təmin edəcək istiqrazatı [borcları] bu iki məmləkətdən alacaqdır.

---

*Bəydadaş bəy Hacı Məhəmməd bəy oğlu 1908 may 12-də Siyəzən kənd divanxanasından aldığı 2959 nömrəli pasportu qeyb olduğundan haiz olduğu qüvvədən saqitdir [etibarsızdır].*

---

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

*səh. 99. "7 təşrini-əvvəl sənə 1918": bu nömrənin nəşr tarixi qəzetdə səhvən "8 təşrini-əvvəl sənə 1918" kimi getmişdir.*

***Bakı şəhəri və ətrafı əhalisinə***
*səh. 99. "2/10/34": Burada il, rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 2 oktyabr 1918-ci ilə uyğundur.*

***Elani-rəsmi***
*səh. 100. "7 təşrini-əvvəl 34": Burada il, rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 7 oktyabr 1918-ci ilə uyğundur.*

***Hökumət əmrləri:***
***Maarif Nəzarətindən***
*səh. 101. Bu əmrlərdəki çoxsaylı "nazir" sözləri "müfəttiş" və "nəzarətçi" kimi başa düşülməlidir. Eyni əmrlərin rusdilli versiyalarında "nazir" sözləri əvəzinə "inspektor" və "smotritel" sözləri işlədilmişdir.*

***Türk ruhu***
*səh. 103. "M. Hənəfi": bu imza Hənəfi Zeynallıya məxsusdur.*

***Rus Milli Komitəsində***
*səh. 104. "...Türk Ordusu Bakı şəhərini işğal etdiyi zamanlarda...": "işğal" sözünün əsl mənası "tutmaq, ələ keçirmək"dir. O dövrdə "işğal" sözü bugünkü mənfi çalarını qazanmamışdı. Burada və ümumiyyətlə Bakının türk və Azərbaycan əsgərləri tərəfindən tutulmasından bəhs edilən bütün hallarda "işğal" sözü düzgün başa düşülməlidir.*

***Hadisat***
*səh. 104. "...bir evdən 4 gecə, nisfülleyldən sonra..." – Çox güman ki, səhv getmişdir, belə olmalıdır: "...4 nömrəli bir evdən gecə, nisfülleyldən sonra..."*

***"Türk Ordusuna" şeiri***
*(səh. 105-106) üçün lüğət*
*əcib: heyrətamiz*
*dilşad: könlü şad olan*
*firqeyi-üdvan: düşmənlər*
*dəhr: dünya*
*nalan: inləyən, fəryad edən*
*xunriz: qan tökən*
*mazi: keçmiş*
*bi-sərü saman: pərişan halda, başsız, nizamsız*
*nanü nəmək: duz-çörək*
*şiranə: şir kimi*
*diliranə: qəhrəmancasına*
*Qadiri-qəhhar: qəhr edən və hər şeyə qadir olan (Allah)*
*sərkar: başçı*
*tiğü tirü xədəng: qılınc, ox və yay*
*zabitani-kiram: şərəfli, böyük zabitlər*
*ədu: düşmən*
*əfrad: fərdlər, nəfərlər; əsgərlər*
*ehya etmək: diriltmək, canlandırmaq*
*olmarız başqa arzucuya: başqa bir şey arzu etmərik*
*pirü cavan: qoca və cavan*
*fərəhnak: sevincli, şən*
*xəndan: gülən*

***Türk Ordusuna***
*səh. 106. "İbrahim": bu imza İbrahim Şakirə məxsusdur.*

***Bakı xəbərləri:***
*Türk Ocağı cəmiyyəti*
*səh. 107: "12 martda 1328 tarixində": Türkiyədə Türk Ocağı cəmiyyətinin quruluş tarixi burada rumi təqvimlə verilmişdir; miladi təqvimlə 25 mart 1912-ci ilə uyğundur.*

***Teatro və musiqi***
*səh. 110: "Bir də inteligent rolunu ifa edirdi. Bunun bir kənara çəkilib hərəkatında nə qədər təbii idisə, öylə də Ələkbər Hüseynzadə digərlərinin ağuşunda ikən atılıb ayaqlarını oynatması əhval və mövqeyinə müğayir idi.": Bu cümlələrdə anlaşılmazlıq var, güman ki, mətnin bir hissəsi düşmüşdür. Qəzetdə belədir.*
*səh. 111. "millətpərəst": "O olmasın, bu olsun" operettasında Həsənqulu bəy obrazı nəzərdə tutulur.*
*"student": "O olmasın, bu olsun" operettasında Sərvər obrazı nəzərdə tutulur.*
*"qəzetəçi": "O olmasın, bu olsun" operettasında Rza bəy obrazı nəzərdə tutulur.*
*"M. H.": bu imza Hənəfi Zeynallıya məxsusdur.*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## 93 min şəhid ailəsi üzvü və müharibə iştirakçısına sosial ödənişlər təyin olunub

**44 günlük Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və müharibənin iştirakçıları (o cümlədən müharibə əlilləri) ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan sosial dəstək paketinin bir istiqaməti də onlara sosial ödənişlərin təyinatıdır.**

Postmüharibə dövründə həmin kateqoriyalara aid 93 min şəxsə aylıq sosial ödənişlər (Prezidentin aylıq təqaüdü, müavinət və pensiya) təyin olunub, sosial ödəniş təyinatları üzrə ümumilikdə 104 min xidmət göstərilib.

Təyinat prosesi şəhid ailələrinin üzvlərinin və müharibə iştirakçılarının heç bir müraciəti olmadan, elektron sistem üzərindən, proaktiv qaydada aparılıb.

Sosial ödənişlər avtomatik təyin olunduqdan sonra həmin şəxslərə bu barədə, həmçinin ödəniş kartlarını nə zaman və hansı bankdan əldə edəcəklərinə dair məlumat göndərilib.

## Heydər Əliyev adına NEZ-də modernizasiya və yenidənqurma işləri davam edir

**Ölkəmizin daha yüksəkkeyfiyyətli yanacaqla təmin olunması məqsədilə SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodunda (NEZ) modernizasiya və yenidənqurma işləri davam edir.**



Layihə çərçivəsində razılaşdırılmış plana əsasən, NEZ-də həyata keçirilən istismar dayanıqlılığı və mükəmməlliyi proqramının tərkib hissəsi olaraq aprelin 4-dən zavodda 50 gün müddətinə əsaslı planlı təmir işlərinə başlanılıb. Hazırda əsaslı təmir işlərinin yekun mərhələsi icra edilir və plana uyğun olaraq zavodun əsas texnoloji qurğularının istismara verilməsi prosesi həyata keçirilir.

NEZ-in qurğularına xam neft və neft məhsullarının qəbulu, qurğuların emal gücünə çatdırılması zamanı baş verə biləcək mümkün texnoloji dayanmaların qarşısının alınması məqsədilə müəyyən karbohidrogen qarışıqlarının zavodun məşəl sistemlərinə göndərilməsi və nəticədə NEZ-in məşəl qüllələrində tüstülənmənin olması gözlənilir. Bu tüstülənmə qurğular tam olaraq istismar həcminə çatdırılana və emal prosesi normallaşana qədər davam edə bilər.

## Xəzərdən uzaq sahillərə



### "Cənub qaz dəhlizi"nin açılışından 4 il keçir

**"Cənub qaz dəhlizi"nin açılış mərasimi 2018-ci il mayın 29-da Bakı yaxınlığındakı Səngəçal terminalında keçirilmişdir. Layihənin nəhəngliyini nəzərə alsaq, onun təməlqoyma və açılış mərasimləri arasındakı vaxt çox qısa olmuşdur. Cəmi 4 ilə yaxın bir vaxt ərzində qazanılan böyük uğur - "Cənub qaz dəhlizi"nin tikilib işə düşməsi Azərbaycanın bundan əvvəl həyata keçirdiyi qlobal neft-qaz və ixrac layihələrinin təcrübəsinə əsaslanmışdır.**

Azərbaycan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərini də təxminən 4 ilə çəkmişdir. Sonra bu kəmərlə yanaşı, "Şahdəniz-1" qazını Azərbaycanın 13 rayonundan keçməklə Gürcüstana və Türkiyəyə çatdıran Bakı-Tbilisi-Ərzurum boru xəttini inşa etmişdir. Əslində Bakı-Tbilisi-Ərzurum kəməri "Cənub qaz dəhlizi"nin bünövrəsi, başlanğıcı rolunu oynamışdır.

"Cənub qaz dəhlizi"nin açılış mərasimində Prezident İlham Əliyev demişdir: "2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan "Şahdəniz" yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır... Doğrudan da, bunlar tarixi nailiyyətlərdir. "Şahdəniz" yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, "Cənub qaz dəhlizi"nin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı".

"Cənub qaz dəhlizi" Azərbaycan qazının Avropa qitəsinə nəqlini həyata keçirən nəhəng bir layihədir. Bu dəhliz dörd mühüm seqmentdən ibarətdir. Bunlar "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi, CQBK-nın (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilməsi, TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) çəkilişidir. İki ilk seqmentin - "Şahdəniz-2"dən qazın əldə olunması və CQBK-nın genişləndirilməsinin başa çatdırılması layihənin rəsmi açılışını etməyə imkan vermişdir. Növbəti ayda - iyunun 12-də TANAP da istismara daxil olmuşdur. Bu münasibətlə Türkiyədə, Əskişəhərdə təntənəli tədbir keçirilmişdir. Sonuncu seqment olan TAP 2020-ci ilin sonuncu günü işə düşmüşdür.

"Cənub qaz dəhlizi"nin uzunluğu 3500 kilometrdir. Dəhlizi təşkil edən, bir-birinə möhkəm "halqa" ilə bağlanan üç kəmər böyük ehtiyatlara malik "Şahdəniz" yatağından hasil olunan qazın Avropa bazarına ötürülməsini təmin edir. Avropanın enerji xəritəsini dəyişdirən nəhəng layihə TAP-ın istismara daxil olması ilə tam sona çatmışdır.

Bu il yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev il ərzində Azərbaycanda 45 milyard kubmetr qazın hasil ediləcəyini, bunun 19 milyard kubmetrinin ixraca gedəcəyini, qalan hissəsinin isə daxili tələbata və lay təzyiqini saxlamaq üçün yataqlarda yenidən neft laylarına vurulacağını demşdir.

Azərbaycan qazının bugününə və sabahına maraq böyükdür. Bu da Avropanın mavi yanacağa artan tələbatı ilə bağlıdır. Cari il aprelin 29-da ADA Universitetində keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda dövlət başçısı həmçinin bu mövzuya aid sualları cavablandırarkən mövqeyimizi ifadə edərək demişdir: "Biz bütün öhdəliklərimizi yerinə yetirmişik. İstehlakçılarla imzalanan müqavilələr üzrə işlər yüz faiz yerinə yetirilir. Bu gün Azərbaycan qazı Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan və İtaliyaya ixrac olunur. Keçən il İtaliya Türkiyə ilə birlikdə Azərbaycan qazını ən böyük həcmdə alan ölkə olub. Bu, 9 milyard kubmetrdən artıq idi".

Mavi yanacaq tədarükünün əhəmiyyəti, böyük qaz resurslarının mövcudluğu, təbii qazın enerji keçidində mühüm rolu və təchizat mənbələrinin şaxələndirilməsinə artan maraq TAP-ın genişləndirilməsinə imkan yaradır. Hazırkı artım tempinin davam edəcəyi təqdirdə bu ilin sonuna qədər İtaliyaya uzunmüddətli və spot müqavilələr əsasında qaz ixracımızın 9,5 milyard kubmetrə çatacağı gözlənilir. TAP-ın genişləndirilməsi yalnız İtaliyanı deyil, Avropanın digər ölkələrini də daha çox təbii qazla təmin edə bilər.

"Cənub qaz dəhlizi" Azərbaycanın təşəbbüsü və liderliyi ilə gerçəkləşən layihədir. Bunu "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin toplantılarına bir qayda olaraq Azərbaycanın evsahibliyi etməsi də təsdiqləyir. Bu il fevralın 4-də Bakıda keçirilən 8-ci iclasda Avropa İttifaqının iki komissarının iştirak etməsi çox müsbət hal kimi qiymətləndirilir. Prezident İlham Əliyev Məşvərət Şurasının toplantısında demişdir: "Məşvərət Şurasının hər bir iclasında müəyyən nailiyyətlər əldə edilmişdir. Hər il biz müəyyən yeni nailiyyətlər haqqında məlumat verirdik. Biz çox şadıq və özümüzü təbrik edə bilərik ki, bu dəfə biz "Cənub qaz dəhlizi"nin uğurla tamamlanması haqqında məlumat verə bilərik".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Özünüməşğulluq proqramına qoşulmaq istəyənlərin sayı artır

**Artıq hər kəs öz həyatında, yaşayışında hiss edir ki, ölkəmizdə əhalinin sosial müdafiəsi dövlətin diqqət mərkəzində olan əsas məsələlərdəndir. Təsadüfi deyil ki, bu sahədə ardıcıl şəkildə islahatlar aparılır, hər bir vətəndaşın sosial rifahının etibarlı təminatı üçün qanunvericilik bazası daim təkmilləşdirilir. Hədəf dövlətin imkanlarından bütün vətəndaşların bərabər və ədalətli faydalanmasıdır.**



Bu sahədə icra olunan islahatlar ölkədə geniş dəstək tapmaqla yanaşı, beynəlxalq təşkilatlar tərəfindən də təqdir edilir. Ən önəmlisi isə aparılan islahatların və qəbul edilən qanunların həssas təbəqədən olan bütün insanlara aid olmasıdır. İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə bunun bir daha şahidi olduq. Belə ki, müharibə başa çatan kimi dövlət şəhid ailələri və müharibə əlilləri, həmçinin müharibə iştirakçılarının sosial müdafiəsi üçün geniş proqramlar hazırlayıb həyata keçirməyə başladı. Bununla yanaşı, düşmən tərəfindən mülki əhaliyə vurulan ziyanı da dövlət ödədi.

Prezident İlham Əliyev tərəfindən 2018-ci ildə aparılan sosial islahatlar əhalinin sosial rifahının daha da yaxşılaşmasında önəmli rol oynadı. Belə ki, 2019-cu ildən ötən dövr ərzində minimum əməkhaqqı 2,3 dəfə artaraq 130 manatdan 300 manata çatdırıldı. Bunun sayəsində ölkəmiz minimum əməkhaqqının nominal, həm də alıcılıq qabiliyyəti indeksinə görə MDB üzrə ikinci yerə yüksəldi. Beləliklə, orta aylıq əməkhaqqı 41, median əməkhaqqı isə 85 faiz artdı.

Son dörd ildə minimum pensiya 2,2 dəfə artaraq 240 manata çatdırılıb. Bu gün ölkəmiz minimum pensiyanın həm nominal, həm də alıcılıq qabiliyyətinə görə MDB-də birinci yerə yüksəlib. Bu dövrdə orta aylıq pensiya 75 faiz artaraq 363, yaşa görə orta aylıq pensiya 70 faiz artaraq 394 manata çatıb. Beləliklə, son 4 ildə müavinət və təqaüd ödənişləri müvafiq olaraq 3 və 5 dəfə artıb. Ümumilikdə 2018-2022-ci illərdə sosial təminat növləri, yəni pensiya, müavinət, təqaüd, ünvanlı dövlət sosial yardımı üzrə illik xərclərdə də 70 faiz artım olub.

Dövlət əmək qabiliyyətli əhalinin sosial müdafiəsinin ən etibarlı forması kimi məşğulluğu görür. Bu məqsədlə yeni iş yerlərinin açılmasına və əhalinin işsiz təbəqəsinin özünüməşğulluq proqramlarına cəlb edilməsinə üstünlük verir. Eyni zamanda bu sahədə mövcud olan nöqsanların aradan qaldırılması ilə mübarizə aparır.

İcra edilən sosial islahatlar sayəsində ölkədə aktiv məşğulluq proqramlarının həcmi də ildən-ilə genişlənir. Qeyd edildiyi kimi, özünüməşğulluq proqramı işsiz və işaxtaran şəxslərin məşğulluğunun təminatında, onların kiçik sahibkarlara çevrilməsində mühüm rol oynayır. Təkcə ötən il 16232 şəxs özünüməşğulluq proqramına cəlb olunub. Bu da proqramın icrasına başlandığı 2017-ci illə müqayisədə 14 dəfə çoxdur. Ümumilikdə son dörd ildə 48 min ailə özünüməşğulluq proqramına cəlb edilib. Beləliklə, həmin ailələr öz kiçik ailə təsərrüfatını yaradaraq rifah hallarını yaxşılaşdırıblar.

Cari ildə əhalinin özünüməşğulluq proqramına cəlb edilməsi prosesi davam edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən bu ilin yanvar-aprel aylarında 24 674 şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub. Onlardan 13 736 nəfəri münasib işlərlə təmin edilib, 4325 nəfər kiçik bizneslərini yaratmaları üçün özünüməşğulluq proqramına cəlb olunub.

Həmçinin agentlik tərəfindən 1023 işsiz şəxs peşə hazırlığına yönəldilib. Həmin şəxslərə işəgötürənlərlə əməkdaşlıq çərçivəsində müxtəlif sahələr üzrə hazırlıq kursları təşkil edilib və məşğulluqlarının təmini üçün işlərə başlanılıb. Həmin dövrdə 5590 şəxs isə peşəyönümü məsləhət tədbirlərinə cəlb edilib.

Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzinə bu il əlilliyi olan 200-ə yaxın şəxs qəbul olunub. Ümumilikdə isə ötən ildən qəbul olunan şəxslər də daxil olmaqla cari ildə burada 250-dən çox şəxsə xidmətlər göstərilib.

Müasir tələblərə uyğun şəraitin olduğu mərkəzdə 15-29 yaşlı əlilliyi olan şəxslərin peşə hazırlığı və peşə reabilitasiyası həyata keçirilir. Burada onlar üçün kompüter istifadəçisi, montaj-operator, tikişçi, toxuculuq, xalçaçılıq, ağac üzərində oyma, kişi bərbəri, qadın bərbəri, aşbaz köməkçisi və rəssamlıq üzrə 3-6 aylıq kurslar təşkil olunur. Kursları uğurla bitirənlərə peşə şəhadətnamələri təqdim olunur və onların gələcək məşğulluğuna dəstək göstərilir. Hazırda Peşə-Əmək Reabilitasiyası Mərkəzində 191 gəncə peşə hazırlığı və peşə reabilitasiya xidmətləri göstərilməsi davam edir.

Qeyri-formal məşğulluğun qarşısının alınması sahəsində görülən müvafiq tədbirlər də öz bəhrəsini verir. Belə ki, 2018-2022-ci illərdə çalışanlarla bağlanan əmək müqavilələrinin sayında 30 faiz və ya 400 minə yaxın artım qeydə alınıb. İşləyənlərin fəaliyyətinin əmək müqavilələri ilə leqallaşması isə onların gələcəkdə yaxşı pensiya almaqlarında başlıca şərtdir. Digər tərəfdən, bu, işləyənlərin hüquqlarının qorunması deməkdir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Vahid əlaqələndirmə mərkəzlərində 32,7 min şəxsə xidmət göstərilib

### 142 Çağrı mərkəzi tərəfindən isə 89,3 min vətəndaşın müraciəti cavablandırılıb

**Prezident İlham Əliyevin 25 iyun 2021-ci il tarixli fərmanı ilə yaradılan vahid əlaqələndirmə mərkəzlərində ötən dövrdə şəhid ailəsi üzvləri və müharibə iştirakçılarından ibarət 32 729 şəxsə xidmətlər göstərilib.**

142 Çağrı mərkəzi tərəfindən isə həmin mərkəzlərə aid məsələlər üzrə 89 334 vətəndaş müraciəti cavablandırılıb.

Ötən ilin avqust ayından Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin DOST mərkəzlərində və Dövlət Sosial Müdafiə Fondunun bölgələrdəki filiallarında 50-yə yaxın şəhər və rayonu əhatə edən vahid əlaqələndirmə mərkəzləri açılıb.

Bu mərkəzlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və müvafiq yerli icra hakimiyyətləri orqanları daxil olmaqla 50-dən çox qurum üzrə 26 istiqamətdə xidmətlər "bir pəncərə"dən, operativ və şəffaf, vətəndaş məmnunluğu prinsipi əsasında göstərilir.

Həmçinin 142 Çağrı mərkəzi vasitəsilə və səyyar formada da xidmətlər həyata keçirilir.

## Qala-Şüvəlan avtomobil yolu yenidən qurulur

**Bakı şəhərində və onun qəsəbələrində rahat gediş-gəlişin təmin olunması məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən küçə və yolların təmiri istiqamətində tədbirlər davam edir.**



Cari ilin "İnvestisiya Proqramı" çərçivəsində hazırda Xəzər rayonunda Qala-Şüvəlan qəsəbələrarası avtomobil yolunun yenidən qurulması işləri icra olunur. Yolun 8-ci km-dən başlayaraq Şüvəlan qəsəbəsinə qədər uzanan Qala-Şüvəlan avtomobil yolunun uzunluğu 5,2 km, hərəkət hissəsinin eni isə ortalama 9 metrdir.

Aparılan yenidənqurma işləri çərçivəsində yolboyu frezlənmə, zəruri yerlərdə yararsız qruntun qazılaraq çıxarılması, əks-dolğu işləri icra olunaraq yeni yol yatağı salınması, yol əsasının inşası və 2 qat olmaqla asfalt-beton örtüyünün döşənməsi işləri aparılacaq.

Artıq yolun 1200 metrlik hissəsində sadalanan işlər yekunlaşmaq üzrədir. Digər hissələrdə isə layihə ardıcıllığına uyğun şəkildə yenidənqurma işləri davam edir.

Bundan əlavə, cari ilin "İnvestisiya Proqramı"na uyğun olaraq, Xəzər rayonunun Mərdəkan, Binə, Buzovna, Qala və Zirə qəsəbələri ərazisində ümumi uzunluğu 26,5 km küçə və yolun təmiri nəzərdə tutulur. Artıq bu istiqamətdə bir müddətdir müvafiq işlərə start verilib.

# "İlham Əliyevin şərtləri ilə razılaşmalıyıq, gecikmək İrəvanın ziyanına işləyir"

## Brüssel görüşünü müzakirəyə çıxaran ermənilər xaosdan xilas olmağın yolunu sülh müqaviləsinin imzalanmasında görürlər

Ermənistanda bir aydan çoxdur davam edən etiraz aksiyaları artıq daha gərgin və həlledici mərhələyə qədəm qoyubdur. Etirazçılar baş nazir Nikol Paşinyanın devrilməsində, sonuncu isə güc yolu ilə olsa belə tutduğu postu saxlamaqda israrlıdır.

Bütün bunların fonunda Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Prezident İlham Əliyevlə Nikol Paşinyan arasında keçirilən sonuncu Brüssel görüşü İrəvanda böyük reaksiyaya səbəb olub. Artıq ölkə ictimaiyyəti də Ermənistanın xilas formulunun Azərbaycanla münasibətləri normallaşdırmaqda gördüklərini davamlı şəkildə bildirirlər.

Ancaq revanşist qüvvələr bu prosesin baş tutmaması üçün məkrli niyyətlərini gizlətmədən nümayiş etdirirlər. Buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malik olduqlarını da çox yaxşı başa düşürlər. Davam edən mitinqlər fonunda ölkədə nüfuzunu itirən keçmiş hərbi xunta nümayəndələrinin sərsəmləmələrinə xalq heç önəm belə vermir. Artıq anlamağa başlayıblar ki, təhlükəsizliyə və iqtisadi inkişafa regionun lider ölkəsi olan Azərbaycandan başqa heç bir dövlət zəmanət verə bilməz.

Ermənilər kommunikasiyaların bərpasının Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşmasına xidmət etməklə yanaşı, iki ölkə üzərindən ticarət və nəqliyyat daşımalarını əhəmiyyətli dərəcədə artıracağını da başa düşürlər.

Erməni siyasi ekspert Nikol Levonyan deyib ki, Brüssel görüşündə aparılan müzakirələr göstərir ki, kommunikasiyaların bərpası Ermənistanın xilası olacaq. İnsanlarla söhbətləri, Brüsseldəki görüş ətrafındakı mövcud xəbərləri nəzərə alaraq deyə bilərik ki, iki ölkə arasında sülh bu anda regionun geosiyasi mərkəzidir. Yalnız sülhün sayəsində iqtisadi tərəqqinin şahidi olacağıq.

"4rd.am" saytı isə yazır ki, sülh müqaviləsinin imzalanmasının geçikməsi Ermənistanın regional geosiyasi proseslərdən izolyasiya edilməsini sürətləndirir. Müəllif məqalədə diqqəti buna yönəldir ki, bütün proseslər Ermənistanın sosial-iqtisadi cəhətdən daha böyük problemlər yaşaması fonunda baş verir. Ermənistan iqtisadiyyatı artıq tamamilə iflasa uğramaq üzrədir: "Rəsmi açıqlamalara görə, Ermənistanda iqtisadi fəallıq daha sürətlə azalır, ölkə sənayesində ciddi geriləmə qeydə alınır. Həmçinin pərakəndə əmtəə dövriyyəsində də kəskin azalma müşahidə olunur. Ölkədə son illər ərzində enerji tariflərinin kəskin yüksəlməsi və əhalinin həyat səviyyəsinin pisləşməsi vətəndaşların sosial narazılığını da artırır. Regionların qlobal layihələrdən kənarda qalması da prosesə birbaşa təsir edir. Ermənistan hələ də qlobal kommunikasiya layihələrindən kənarda qalmaqdadır. Qlobal meyillər durmadan dəyişir və ölkəmiz coğrafi baxımdan qlobal kommunikasiyaların tərkib hissəsi ola bildiyi halda bu şansı itirir. Amma əvəzində Azərbaycan prosesdən uğurla faydalanır. Sülh müqaviləsinin imzalanmasının gecikməsində Ermənistan itirən tərəfdir".

"Feysbuk" sosial şəbəkəsində çoxlu sayda izləyicisi olan səhifələr "Brüsseldə növbəti görüş" xəbərini paylaşaraq "Etirazların davam etməsi, Brüsseldəki görüş Ermənistan üçün nələr vəd edir" sualını veriblər. Bir çox izləyici bu paylaşmanın altında rəylər yazıb. Onlardan biri - ixtisasca iqtisadçı olan Manvel Qasparyan yazır: "Müqayisə aparsaq, Azərbaycan iqtisadi cəhətdən Ermənistandan çox öndədir. Azərbaycan daha da güclənir. Sülh müqaviləsinin imzalanması Ermənistan iqtisadiyyatına mütləq şəkildə öz müsbət təsirini göstərəcək. Belə ki, iqtisadiyyat dirçələcək, insanların sosial rifahı yaxşılaşacaq. Bir çoxlarınızın qəzəbinə səbəb olsa da, deməliyəm: İlham Əliyevin şərtləri ilə razılaşmalıyıq, gecikmək İrəvanın ziyanına işləyir".

Ermənistanda yaranmış xaos fonunda siyasi təqiblər başlayıb. Belə bir iddia ilə müxalifətin aparıcı fiqurlarından sayılan Milli Təhlükəsizlik Xidmətinin (MTX) keçmiş rəhbəri Artur Vanetsyan çıxış edib. O, sübut kimi dostunun evində axtarış aparılmasını göstərib. Bildirib ki, Ermənistan Respublikasının İstintaq Komitəsinin müstəntiqləri dostu Aram Qriqoryanın evində axtarış aparıblar. Aram Milli Təhlükəsizlik Xidmətinin ehtiyatda olan polkovnik-leytenantıdır. Heç vaxt qanunu pozmayıb, həyatı boyu Ermənistan respublikasına xidmət edib.

Prezident İlham Əliyev seçim üçün Ermənistanın siyasi rəhbərliyinə dəfələrlə şans verib. Ermənistan ictimaiyyəti də artıq başa düşür ki, Azərbaycanın təklifləri ilə razılaşmasalar, İrəvanın təcrid vəziyyətdə inkişaf etməsi mümkünsüzdür və ötən zaman bunu çox aydın göstərib.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Meymunçiçəyi qlobal təşvişə səbəb olub

## ÜST yay mövsümündə xəstəliyin yayılma təhlükəsi barədə xəbərdarlıq edib

Bu il ilk dəfə mayın 7-də İngiltərədə aşkarlanan Qərbi və Mərkəzi Afrika mənşəli meymunçiçəyi virusu hər ötən gün yayılma sayını və arealını artıraraq dünyada böyük təşvişə səbəb olub. Koronavirus pandemiyasının hələ bitmədiyi bir vaxtda bu virus səbəbilə yeni pandemiyanın başlayacağı ehtimalı hər kəsdə panika yaradıb. ABŞ, Kanada və Avropa ölkələri başda olmaqla hələlik 14 ölkədə aşkarlanan meymunçiçəyi xəstəliyi ilə bağlı həyəcanlı açıqlamalar bir-birinin ardınca gəlir.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) xəbərdarlıq edib ki, qarşıdan gələn yay mövsümündə meymunçiçəyi xəstəliyinin yayılma təhlükəsi var. Eyni zamanda ÜST-ün Avropa ofisi yay aylarında keçirilən festivalların və digər kütləvi tədbirlərin meymunçiçəyi virusunun yayılmasını artıracağından ehtiyat etdiyini ifadə edib.

### Təcrid qərarı verən ilk ölkə Belçika oldu

Belçika sözügedən virusa yoluxmuş şəxsləri təcrid edən ilk ölkədir. Bu ölkədə yoluxmuş şəxslərin təcrid müddəti xəstəliyin gedişatından asılı olaraq 5 gündən 21 günədək davam edir. Yoluxmuş şəxslər onlarda xəstəliyin bütün əlamətləri aradan qalxdıqdan sonra evə buraxılır. Xatırladaq ki, ötən həftə Belçikanın Antverpen şəhərində keçirilən "Darklands" adlı festivalın iştirakçılarından 3-ündə meymunçiçəyi aşkar edilib.

Britaniyanın Sanitar Təhlükəsizlik Agentliyinin nümayəndəsi Syuzan Hopkins yerli mediaya müsahibəsində bildirib ki, Birləşmiş Krallıqda hər gün meymunçiçəyinə yeni yoluxma aşkar edilir. O, xəstəliyin Afrikadan gələnlərlə təmasda olanlar arasında yayılması iddiasını təkzib edib.

Hələlik virusa ən son yoluxma halları İsveçrə və İsraildə qeydə alınıb. Lakin bununla bağlı statistika və rast gəlinən ölkələr artan rəqəmlərlə dəyişir.

### Virusa ilk dəfə Konqoda rast gəlinib

İlk dəfə 1958-ci ildə meymunlarda aşkar edilən virus insanlar arasında 1970-ci ildə Konqo Demokratik Respublikasında qeydə alınıb. Qısa müddətdə 11 Afrika ölkəsinə yayılan virus bundan sonra 2003-cü ildə Afrikadan kənarda - ABŞ-da yayılıb. 2018-ci ildə Böyük Britaniya və İsrail, 2019-cu ildə Sinqapur və 2021-ci ildə ABŞ-da Afrikaya səyahət edən bəzi insanlarda meymunçiçəyi virusuna rast gəlinib.

Afrikada təsirli olan virus 2017-ci ildə Nigeriyada böyük epidemiyaya səbəb olub, ölkədə 200 adama yoluxub və onlardan 3 faizi virus səbəbindən ölüb.

### Azərbaycanda vəziyyət necədir

Bəs dünyanın dörd bir yanında təşvişə səbəb olan meymunçiçəyi xəstəliyinin Azərbaycanda yayılma təhlükəsi varmı?

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Ləman Qalimova bildirir ki, hazırda ölkəmizdə bu virusa rast gəlinməyib. Olmaması üçün də bütün tədbirlər həyata keçirilir.

İnfeksionist deyir ki, Avropa ölkələrində meymunçiçəyi virusuna yoluxma hallarına rast gəlinməsi vətəndaşlarımızı da təşvişə salır. Meymunçiçəyi xəstəliyi bir virusdur və suçiçəyi xəstəliyinə çox bənzəyir. Bu xəstəliyə adətən Qərbi Avropa ölkələrində meşəətrafı yaşayış məntəqələrində daha çox rast gəlinir. İki ştamı mövcuddur - Qərbi Afrika və Mərkəzi Afrika.

### Vətəndaşlar bu kimi hallarla rastlaşsalar, mütləq həkimə müraciət etməlidirlər

Virusun simptomlarının qızdırma, başağrısı, şişkinlik, belağrısı, zəiflik, əzələdə ağrılar kimi özünü büruzə verdiyini söyləyən L.Qalimova qızdırma azaldıqdan sonra səpkilərin yarandığını bildirir. Səpkilər öncə üz nahiyəsindən başlayır. Daha sonra bədənin digər nahiyələrində, əksər hallarda isə ovuc və ayaqlarda rast gəlinir. Çox qaşıntılı olur və sonradan səpkilər yaraya çevrilir. Bu yaralar iz buraxa bilər. Ona görə də yaraların qaşınmaması və qoparılmaması tövsiyə olunur: "Xəstəlik adətən yaxın təmasla yayılır. Tənəffüs yolu, selikli qişa və cinsi əlaqə yolu ilə ötürülür. Həmçinin xəstəliyə tutulan meymun, siçovul və dələdən yoluxmaq mümkündür. Adətən bu xəstəlik yüngül formada keçir. Suçiçəyinə çox bənzəyir. Bəzən 2-3 həftə ərzində özü-özünə sağala bilir. Virusun aşkarlandığı ölkələrdə ölüm halı çox az qeydə alınıb.

Vətəndaşlar əgər yuxarıda sadalanan hallarla rastlaşsalar, mütləq həkimə müraciət etsinlər".

### COVID-dən xeyli fərqlidir

Mütəxəssislər hesab edirlər ki, meymunçiçəyi virusunun yoluxduruculuğu çox zəif olduğu üçün böyük narahatlığa ehtiyac yoxdur. Britaniyadakı Nottingham Universitetinin araşdırmasına görə, meymunçiçəyinə yoluxmuş ilk pasiyentin 50-dək təmaslarından yalnız birinin yoluxması infeksiyanın nə qədər zəif olduğunu göstərir. Buna görə də ümummilli epidemiyanın astanasında olduğumuzu düşünmək yanlışdır.

Türkiyəli yoluxucu xəstəliklər və klinik mikrobiologiya mütəxəssisi professor Alpay Azap məlumat verib ki, COVID-dən fərqli olaraq, bu virus asimptomatik olduqda yoluxucu olmur və bu da yayılmanı azaldır. Xəstəliyin simptomları çox xarakterik olduğu üçün diaqnoz qoymaq daha asandır. Yəni konkret insanları təcrid etdikdə cəmiyyətdə sürətlə və nəzərə çarpmayan yayılmanın qarşısını almaq şansı var.

Mütəxəssis onu da bildirib ki, meymunçiçəyi DNT virusudur, COVID-19 kimi, RNT virusu deyil. DNT virusları öz-özünə təmir mexanizminə malik olduğundan, COVID-də olduğu kimi, yeni variantların və peyvənddən yayınmaq üçün yeni variantların ortaya çıxması gözlənilmir. Ona görə meymunçiçəyinin COVID qədər təhlükəli olması mümkün deyil.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Təmizlik, sağlamlıq və xeyirxahlıq naminə...

## Paytaxtda məişət tullantılarının çeşidlənməsi və təkrar emala yönəldilməsi prosesində ən mükəmməl dünya təcrübəsi tətbiq olunur





*Məişət tullantılarının düzgün idarəedilməsi antisanitariya vəziyyətinin qarşısını alaraq ətraf mühiti çirklənmədən qoruyur. Tullantıların zibil qablarına düzgün yerləşdirilməməsi və ya qarışıq şəkildə atılması insan sağlamlığı üçün çox zərərlidir.*
*Çünki çoxlarının tullantını zibil qabına atdığı an bitdiyini düşündüyü prosesin əslində davamı var. Bu tullantılar daşındıqdan sonra çeşidlənir və bəziləri yenidən emala göndərilir. Elə isə ən başından sağlamlığımızı niyə özümüz nəzarətə almayaq ki?..*



### 3 ildir həyata keçirilən uğurlu layihə

Təmizlik imandan gəlir deyirlər. Müxtəlif qurumlar tərəfindən bu istiqamətdə müxtəlif layihələrin həyata keçirilməsindən əlavə olaraq insanlar da tullantıların çeşidlənməsini ilk olaraq evdə həyata keçirməlidirlər. Növbəti mərhələdə tullantılar doğru konteynerlərə atılır, sonradan isə onların çeşidlənməsinə əlverişli şərait yaradırıq.

Tullantıların düzgün yığılması, emalı və çeşidlənməsi vacib şərtlərdən biridir. Bakı şəhərində əhali artdıqca tullantının miqdarı da çoxalmaqda davam edir. Tullantıların çoxu şəhərkənarı poliqonlara aparılsa da, Balaxanıda yerləşən tullantı çeşidlənməsi və onlardan enerji əldəetmə zavodlarına göndərilməsi də həyata keçirilir.

Xarici ölkələrdə uzun illərdir tətbiq olunan məişət tullantılarının çeşidlənməsi artıq 3 ildir ki, Bakı şəhərində də həyata keçirilir. Dövlət başçısının tapşırıqlarına əsasən, paytaxt Bakıda bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunmasına başlanılıb. Bu prosesi aparıcı Avropa dövlətlərinin paytaxtları və iri şəhərləri səviyyəsinə çatdırmaq məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən başladılan layihə uğurla davam edir. Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamenti və bu işlərdə böyük təcrübəyə malik olan Böyük Britaniyanın "Mott MacDonald" şirkəti arasındakı müqavilə əsasında Bakı şəhərində məişət tullantıları ilə bağlı yeni konsepsiya hazırlanaraq 2019-cu il iyulun 10-dan icrasına başlanılıb.

İlk olaraq Bakının Nərimanov rayonunda bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin ən müasir səviyyədə təşkil edilməsinə start verilib. Növbəti mərhələlərdə digər 3 rayonda - Nizami, Nəsimi və Yasamal rayonlarında da layihə davam etdirilib. Layihə çərçivəsində həmin rayonların hər bir məhəlləsində məişət tullantıları üçün yaradılan meydançalarda 2 rəngdə - yaşıl və narıncı rəngdə yeni, müasir konteynerlər quraşdırılıb.

Həyata keçirilən layihənin, necə deyərlər, bəhrəsi özünü göstərməkdədir. Artıq vətəndaşların evdən çıxarkən əllərində iki torbada tullantı atdıqları müşahidə olunur. Bir torbada qarışıq, digərində isə karton, kağız, plastik qablar və s. tullantılar olur.

Qeyd edək ki, ətraf mühitin çirklənmədən qorunması üçün mühüm əhəmiyyət kəsb edən layihənin uğurla həyata keçirilməsi və paytaxt sakinlərinə göstərilən xidmətlərin səviyyəsinin daha da yüksəldilməsi məqsədilə Bakı şəhər kommunal təsərrüfatı xidmətləri üçün müasir tələblərə tam cavab verən kommunal təyinatlı 57 yeni avtonəqliyyat vasitələri və mexanizmlər alınıb. Yeni texnikaların tətbiqi əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsini yüksəldərək mövcud avtoparkın yenilənməsinə böyük kömək olub. Bu il də yeni texnikaların alınması nəzərdə tutulur.

### Çeşidlənmiş tullantılar - sağlamlığımız öz əlimizdədir

Nərimanov Rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin rəisi Manaf Manafov qeyd edir ki, respublikada ilk olaraq bu rayonda icrasına başlanılan layihə uğurla davam edir. Onun sözlərinə görə, ərazidə əhalinin sıxlığından asılı olaraq tullantılar gün ərzində bir neçə dəfə daşınır. Konteynerlərin sayı da sıxlığa görə müəyyənləşdirilir. Xarici ölkələrdən gətirilən konteynerlər Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən verilir. Tullantıları daşıyan maşınlar iki istiqamətdə işləyir. Bir maşın çeşidlənmiş, yəni narıncı konteynerdəkiləri, digəri isə yaşıl konteynerdə olan - qarışıq tullantıları daşıyır. Bunlar Balaxanıda "Təmiz şəhər" poliqonuna aparılır və orada yenidən çeşidləmə işləri aparılır.

M.Manafov yeni layihə barədə də məlumat verdi. Bu da günümüzdə vacib olan layihələrdən biridir. Artıq çeşidləmə üçün yerləşdirilən konteynerlərin yanında geyinilmiş paltarların atılması üçün də xüsusi qutular qoyulub. Həmin qutulara yalnız geyim, ayaqqabı atıla bilər. Bu layihə ilkin mərhələdə Nərimanov, Nizami, Yasamal və Nəsimi rayonlarında həyata keçirilir, qısa zamanda digər rayonlarda da belə qutular yerləşdiriləcək.

Hazırda konteynerlərin yanında daim nəzarətçilər olur və onlar gün ərzində ərazinin təmizliyinə baxır, vətəndaşların gətirdikləri tullantı paketlərini doğru konteynerlərə atmaları üçün istiqamətləndirirlər. Layihənin icrasına başlanılandan Nərimanov rayonunda əraziyə cavabdeh olan şəxslərdən Məmmədağa Hüseynov deyir ki, gün ərzində 8 saat ərazidə olurlar və tullantıların doğru konteynerlərə atılmasına nəzarət edirlər.

### Tullantıların yararlılığı artır

İlk günlərdən layihənin icrası Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən nəzarətdə saxlanılır. Bundan əlavə, "Mott MacDonald" şirkətinin rəhbərliyi və nümayəndələri xüsusi yaradılmış BŞİH-nin bərk məişət tullantılarının idarə edilməsi üzrə Monitorinq Mərkəzində tullantıların kompozisiya tərkibinin və çeşidləmə səviyyəsinin yoxlanılmasına nəzarət edirlər. Layihənin gedişatının monitorinqi məqsədilə mütəmadi olaraq hər bir rayon üzrə toplanan çeşidlənmiş tullantıların tərkibi və çəkisi araşdırılır, nəticələr əvvəlki müddətlə müqayisə edilir. Monitorinqlər üçün şirkətin səlahiyyətli nümayəndələri Bakıya səfər edir, bu istiqamətdə araşdırma aparırlar.

"Mott MacDonald" şirkətinin rəhbərliyinin səlahiyyətli nümayəndəsi, Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması üzrə islahatlar konsepsiyasının rəhbəri Martin Saymon layihənin gedişatını yüksək qiymətləndirərək bildirir ki, layihə Bakı şəhərində sıfır mərhələsindən başlamasına baxmayaraq əldə olunan nəticələr uğurludur: "London şəhərində 20 ildən çox müddətdə icra edilən layihədə təkrar emal üçün çeşidlənən tullantıların həcmi 40 faiz olub. Bakının Nərimanov rayonunda isə 3 il ərzində bu istiqamətdə görülən işlər nəticəsində bu rəqəm son vaxtlarda 30-32 faizə, çeşidlənmiş tullantıların yararlılığı isə 55-60 faizə çatıb, bu da çox yaxşı nailiyyət sayılır".

Mütəmadi olaraq araşdırma aparan xarici mütəxəssislər layihənin nəticələrinin uğurlu olduğunu, Bakının gündən-günə təmiz şəhərə çevrildiyini diqqətə çatdırırlar.

Təbii ki, hər bir layihənin həyata keçirilməsi, tətbiqinin uğurlu olması üçün əhali arasında maarifləndirmə tədbirlərinin böyük əhəmiyyəti var. Hələ layihəyə hazırlıq dövründə izahedici bukletlər, sakinlərin rahatlığı üçün hər mənzilə 2 cür - yaşıl və narıncı çeşidləyici paketlər paylanılıb, bloklara, həyətlərə, binalara maarifləndirici reklamlar yapışdırılıb. Məhəllə və həyətlərdə sakinlərlə maarifləndirici-izahedici görüşlər keçirilib, yeni layihə barədə vətəndaşlara ətraflı məlumat verilib. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Ümumiyyətlə, konsepsiyanın həyata keçirilməsi sürətlə davam edir, digər rayonlarda tətbiqi nəzərdə tutulur. Layihə turistləri cəlb edən, qədim və müasirliyi özündə birləşdirən paytaxt Bakının təmiz saxlanılmasına, daha da gözəlləşməsinə, ətraf mühitin və sağlamlığın qorunmasına, yeni ekoloji, sanitar mədəniyyətin formalaşmasına xidmət edəcək.

***Əsmər QARDAŞXANOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***





# Birbaşa aviareyslər Azərbaycanı və Çernoqoriyanı yenidən birləşdirəcək

**"Azərbaycan Hava Yolları" aviaşirkəti turoperator PAŞA Travel ilə birgə yenidən Çernoqoriyaya çarter reyslərinin yerinə yetirilməsinə başlayacaq.**




"Azərbaycan Hava Yolları"nın Mətbuat xidmətindən verilən məlumata görə, AZAL və PAŞA Travel 2022-ci ilin yay uçuş cədvəli çərçivəsində Çernoqoriyaya çarter proqramının bərpası barədə razılığa gəlib. Belə ki, iyunun 30-dan sentyabrın 1-dək Bakı-Tivat-Bakı marşrutu üzrə reyslər hər həftənin cümə axşamı günləri yerinə yetiriləcək.

Çernoqoriyanın müasir kurort şəhəri olan Tivat Vrmas yarımadasında Boka-Kotor körfəzinin sahilində yerləşir. Tivat Beynəlxalq Hava Limanı Çernoqoriya sahilində yeganə hava limanıdır və onun ən məşhur kurortları yaxınlığında yerləşir.

Bu istiqamətin əsas üstünlüklərindən biri Azərbaycan vətəndaşları üçün vizasız rejimin tətbiq edilməsidir.

Bakı-Tivat-Bakı marşrutu üzrə aviabiletləri aviadaşıyıcının akkreditə olunmuş agentliklərində əldə etmək mümkündür. Aviabiletin dəyərinə baqajın pulsuz daşınma norması (23 kq-a qədər ekonom sinfində və 32 kq-da biznes sinfində), həmçinin tam çeşiddə soyuq və isti qidalar daxildir.

Çernoqoriyaya turizm paketləri həmçinin Azərbaycanın bütün turizm agentliklərində satışa çıxarılır.

AZAL və PAŞA Travel 2017-ci ildən bu istiqamət üzrə uğurla əməkdaşlıq edir.

Həmin reyslərdə daşıma üçün müəyyən edilmiş şərtlərə uyğun gələn və qüvvədə olan epidemioloji məhdudiyyətlər şəraitində uçuşuna icazə verilən sərnişinlər qəbul ediləcək.

Çernoqoriyaya getməyi planlaşdıran bütün sərnişinlərə uçuşdan əvvəl bu ölkəyə daxil olarkən qüvvədə olan qaydalarla aşağıdakı link vasitəsilə tanış olmaq tövsiyə olunur: *https://www.azal.az/az/information/covid-montenegro*.

Azərbaycana giriş qaydaları haqqında məlumatla aşağıdakı linkdən ətraflı tanış olmaq olar: *https://www.azal.az/ru/-information/covid-azerbaijan.*


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


# "2914-Biz sülh istəyirdik" kitabının təqdimat mərasimi keçirilib

**Gəncliyə Yadım Fondunda Vasif Qurbanzadənin müəllifi olduğu "2914-Biz sülh istəyirdik" kitabının təqdimat mərasimi və imza günü keçirilib.**



AZƏRTAC xəbər verir ki, Vasif Qurbanzadə tədbirə gələn şəhid analarını, Vətən müharibəsində döyüş yolu keçmiş qaziləri, veteranları və digər qonaqları salamlayaraq nəşr haqqında ətraflı məlumat verib.

Tədbirdə Azərbaycanın Xalq yazıçısı Çingiz Abdullayev, dramaturq Əli Əmirli, yazıçı-publisist Mustafa Çəmənli, şair Rəfail Tağızadə, Azərbaycan Yazıçılar Birliyinin mətbuat katibi şair Xəyal Rza, qazi-jurnalist Rey Kərimoğlu, jurnalist Səxavət Məmməd və digər söz və qələm ustaları çıxış edib, kitab haqqında rəy və fikirlərini bölüşüblər.

Gələcəyə məktub kimi dəyərləndirilən bu kitab vətən sevdalılarının müharibə dövründəki həyat hekayəsidir. Real hadisələrə əsaslanaraq günbəgün qeydə alınan yaşantılar bədii ifadələrin köməyi ilə elə məharətlə təsvir olunub ki, hadisələr adamı müharibənin içinə aparır.

44 günlük Vətən müharibəsinin xronologiyası, vətən, torpaq sevgisi və 28 illik yurd həsrətinin qələbəylə yekunlaşması, sevincin gizlindəki kədər, müharibənin yaratdığı itkilərlə yanaşı, Zəfərə susamış xalqın Qarabağ üçün ayağa qalxması kövrək çalarlarla təsvir olunub.

Amansız və qanlı döyüş meydanı ilə paralel, mübarizənin heç də az amansız olmayan informasiya məkanında və siyasi müstəvidə də aparılması sözügedən nəşrdə xronoloji qaydada yer alıb. Bu yükü öz üzərinə götürən Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin əsaslı faktlara söykənən çıxışları, yerli və xarici mətbu orqanlara verdiyi müsahibələr də kitabda öz əksini tapıb.

Bundan başqa, Xalq yazıçısı Çingiz Abdullayevin rus kanallarında düşmən cəbhəsi dəyirmanına su tökənlərə tutarlı cavabları da nəşrdə nəql edilib.


## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 26.05.2022-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


## Lənkəran Dövlət Universiteti
### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

**GRAND layihəsi üçün laboratoriya avadanlıqlarının alınması işlərinin satın alınması**

Tender iştirakçıları https://www.etender.gov.az / - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız "Asan Ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "Asan Ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı -150.00 (bir yüz əlli) AZN**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədin əsli skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);
2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır);
3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (arayış 2022-ci ilin aprel-may ayları ərzində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır);
5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə);
6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Bank arayışı 2022-ci ilin aprel-may ayları ərzində verilmiş olmalıdır;
7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (iddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığının, təcrübəsinin və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV-ləri və mövcud sertifikatlar);
8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması; Malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotun da olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir);
9. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2022-ci ilin aprel-may ayları ərzində verilmiş olmalıdır;
11. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2022-ci ilin aprel-may ayları ərzində verilmiş olmalıdır;
12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; Məhkumluq haqqında arayış (DİN və ya "ASAN xidmət" mərkəzlərindən);
13. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə;
14. *Digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

**İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla ) 13 iyun 2022-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 22 iyun 2022-ci il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.**

**İddiaçıların təklifləri 23 iyun 2022-ci il saat 17:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.**

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

*Təkrar*

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs "Tibb müəssisələri üçün tibbi avadanlıqların və tibbi alətlərin" satın alınması üzrə
### *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (Əlaqələndirici şəxs: Cavid Əliyev, telefon: +99412 310 07 70 (daxili: 2027), E-mail: jaliyev@its.gov.az) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

**LOT-1. Tibb müəssisələri üçün tibbi avadanlıqların və tibbi alətlərin satın alınması.**

İştirak haqqı: LOT-1. 2500.00 (iki min beş yüz) manat;

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**

**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK - AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
4. Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;
5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);
7. İddiaçının tender təklifi (tender təklifi zərflərinin açıldığı gündən sonra **60 (altmış) bank günü** qüvvədə olmalıdır.
8. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən **30 (otuz) bank günü** çox olmalıdır);
9. Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;
10. Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat *(malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib edilməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) **17.06.2022-ci il saat 15:00-a qədər,** tender təklifi və tender təklifinin bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **28.06.2022-ci il saat 15:00-a qədər** Bakı şəhəri Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçının təklifləri **29.06.2022-ci il saat 15:00-da** Bakı şəhəri Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında yerləşən "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsində açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# *ANAMA:* Ötən həftə 413 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, mayın 16-dan 21-dək Tərtər, Ağdam, Xocavənd, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 109, tank əleyhinə 69 mina və 155 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Həftə ərzində 413 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.











BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*
Tiraj 5932
Sifariş 1441
Qiyməti 40 qəpik